
ruhumun
rəngləri
ELŞƏN
İSMAYIL

# ELŞƏN İSMAYIL

# “RUHUMUN RƏNGLƏRİ”

## *(hekayələr)*

**BAKI 2021**

**© MÜƏLLİF HÜQUQLARI QORUNUR**

# “DİCLE”
# QAN QOXAN GÖZƏLLİK

***(hekayə)***

Gənc dəliqanlı, Özəl Hərəkat birliyinin əməliyyatçısı olan Baybars Kağanlı tağım komandirinin əmriylə digər yoldaşları ilə birlikdə gizləndiyi təpəciyin arxasından qalxdı və dərhal qarşıdakı kolluğa doğru iti sürətlə qaçmağa başladı. O an gözlərində qətiyyən qoxudan əsər-əlamət yox idi. Ancaq tapşırılan xüsusi tapşırığı yerinə yetirmək və tezliklə qarşılaşacağı mənfur düşməni məhv etmək haqqında düşünürdü. Əllərini İsrail istehsalı olan “Tavor” markalı avtomatına sıxmış, cəld və son dərəcə ehtiyatlı hərəkətlərlə irəliləyirdi. Bir qədər getmişdi ki, nəhayət, əsas məntəqəyə - düşmənin təpəlikdə qurduğu düşərgəsinə gəlib çatdı. Vaxt itirmədən gizlənmək üçün əyildi və yerini rahatlayaraq kolluq sahədən qarşıya doğru boynundan asdığı binoklla baxmağa başladı. Diqqətinin yarısı düşmən çadırlarında, digərisə sol qulağında yerləşdirdiyi xüsusi mikroqurğuda idi. Onun vasitəsiylə əməliyyat başlayandan bəri komandirindən təlimatlar alırdı.

Düşmən tərəfdə isə vəziyyət sabit idi: təxmini 10-dan çox çadır ətrafında Rusiya istehsalı “AKSM” avtomat silahla silahlanmış terrorçuların sayı 50-yə çatırdı. Onlar durmadan yerlərində var-gəl edir, ərazini nəzarətdə saxlayırdılar. Çadırların birində isə Yaxın Şərqin üç ən təhlükəli adamı toplantı keçirirdi. Onlar, İran Kəşfiyyatının nüfuzlu zabitlərindən Firuz Kaşğani, PKK terror təşkilatının bölgə rəhbəri Bahoz Barudi və xüsusi döyüş taktikasına, bu zamana qədərki əməliyyatlarda qazandığı mistik uğurlarına görə dünyanın bir çox təhlükəsizlik orqanlarının “qara siyahısı”-nda adı olan, bacarığı qədər əsrarəngiz gözəlliyə sahib, onlarla kəşfiyyat liderinin və mafiya başçısının mavi yuxularının əvəzsiz qəhrəmanı kürd qızı Dicle (Diclə-Dəclə) idi.

Dicle, yaşının az olmasına baxmayaraq qatıldığı bütün əməliyyatlardan uğurla çıxmış, göndərildiyi hər yerdə ad qazanmış və lazım gəldiyi zaman düşmənini ram etmək üçün çəkinmədən hər vasitəyə əl atan (əsasən də kişilərin cinsi istəklərindən məharətlə yararlanırdı) və işinə həddən artıq ciddi yanaşan, soyuqqanlı, prinsipial biri idi. Bu günkü toplantının da onun istədiyi kimi keçməsinin səbəbi elə məhz malik olduğu xarakterinin və xüsusi istedadının nəticəsi idi.

- Necə bilirsən, İran-İraq sərhədində bir problem çıxmaz ki? – deyə yeni “mal” əməliyyatı barəsindəki narahatlığını bildirdi orta yaşlı, dərisi qırışmış, başı dazlaşmış olan terrorçubaşı Bahoz Barudi.

- Yox, canım, qətiyyən. Dedim axı, İranla bağlı heç bir nigarançılığın olmasın. Hakimiyyət bizim əlimizdədir. Hansı havanı çalsaq onu da oynayacaqlar. – bir gözü Diclenin yarı-açıq, qabarmış sinəsində olan, yaşı qırxı adlamış, saqqallı, çopur sifətli Firuz Kaşğani gülümsəyərək müttəfiqini sakitləşdirdi.

Bu zaman əməliyyatı nöqtəsi-vergülü ilə bilən, görünüşcə həssas, qəlbisə buz kimi soyuq olan iyirmi beş yaşlı kürd gözəli Diclenin bütün diqqəti elə Firuzda idi. Deyəsən, bu İblis xislətli qadın növbəti “xidmətçisini” tapmışdı və ondan bütün ruhunu ələ keçirərək axıra qədər istifadə etmədən əl çəkməyəcəkdi.

Firuz, nüfuzuna və hazırki gücünə baxmayaraq Bahozdan bir qədər çəkindiyi üçün günlərdir dərdindən öldüyü, bir kişi kimi alışıb-yandığı Dicleni ancaq təsadüfi və qorxaq baxışlarla süzə bilirdi. Bununsa iki səbəbi vardı: uzun zamandır birlikdə çalışdığı və köməyilə milyardlar qazandığı ortağı Bahozu hirsləndirməmək və ona inanıb uğrunda canını fəda edən onlarla silahdaşının gözündə alçalmamaq istəyirdi. Çünki necə də olmasa Dicle ta 14 yaşından (PKK-ya qatıldığı zamandan) yaşlı Bahozun himayəsində idi və o istəməsəydi qıza başqa kimsə toxuna bilməzdi, hətta bu adam hər mənada ondan güclü olsaydı da belə. Və bir başqa səbəb də çox az

adamın bildiyi (Firuz da bilənlərə daxil idi) bir gerçək – Bahozun bu gənc, çılğın, soyuqqanlı kürd gözəlinə aşiq olması (əslində səbəb, sadəcə onun qıza öyrəşməsi idi ki, Bahoz bunu eşq hesab edirdi və Dicle hər mənada – cinsi və hərbi-strateji mənada ola lazım idi) ... Bax, sırf o məsələyə görə hər şey bir anda məhv ola bilərdi: dostluq, illərin güclü müttəfiqliyi və bundan sonra minlərlə günahsız insanın qanı bahasına qazanılacaq milyonlar, bəlkə də milyardlar...

Dicle, 14 yaşı olanda Türkiyə hökumətinin adi bir səhv əməliyyat əmri nəticəsində ata-anasının gözləri önündə öldürülməsinin şahidi olmuş, o andan sonra dağlara qaçaraq terrorçulara qoşulmuşdu. Baxmayaraq ki, o zamana qədər dostları, rəfiqələri içində dövlətə bağlılığıyla fərqlənirdi. O, zehniyyətdə kürd milliyyətçisi olsa da, milli mübarizənin silahlı qanadına əsla inanmır, bunun ancaq hər iki millətə ziyan olduğunu düşünürdü. Ancaq o dəhşətli faciədən sonra gənc yeniyetmə Diclenin bütün humanist duyğuları və dövlətə inamı öldü. Artıq o, valideynlərinin intiqamını almağa çalışan bəsit biri idi. Amma illər, qoşulduğu ideoloji və siyasi qruplar, toplantılar, savaş onu çox dəyişdi. İndi bu əsrarəngiz gözəl, bütün hissləri alınmış, duyğuları yox olmuş, düşüncəsində ancaq qan tökmək olan qorxubilməz döyüşçü idi. Himayəsində olduğu Bahoza isə bağlığının bir çox səbəbi vardı. O səbəblərdən biri intiqam, digəri bəsit savaş şərti – bir komandanlıqda xidmət etmək fikri idi. Lakin o, eyni zamanda komandirinə nifrət də edirdi. Çünki həyatının zəhərlə dolu keçməsinə baxmayaraq o, tez-tez etdiklərindən, törətdiyi cinayətlərdən peşmançılıq hissi keçirirdi. Və sırf Bahozun sərt müqaviməti onu dərhal bu hisslərdən kənarlaşdırır, ona yenidən qansız, ruhsuz qatil olduğunu xatırlardı. Amma nifrətinin əsas səbəbi tamam başqa idi.

14 yaşında dağa qalxan yeniyetmə Dicle, qəlbi sınmış, ruhu incinmiş, bütün xəyalları puç olmuş, gələcəyi əlindən alınmış bir qız idi. Əclaf Bahozsa sırf cinsi ehtiyacını ödəmək və ondan təhlükəli işlərdə istifadə etmək üçün Dicleni aldatdı (hazırda bu terror təşkilatının tərkibində yer alan qadınların yarıdan çoxu Diclenin taleyini yaşayır): guya ona ailəsinin gerçək qatillərini tapmaq və öldürmək şansı verəcək və s... Və günlərin bir günü gecəyarısı, düşərgədə əsas heyət yatan zaman şərəfini, vicdanını pula, vəzifəyə və digər ani həvəslərə satan Bahoz Barudi ona utanmadan, çəkinmədən, qorxmadan (Tanrıdan, vicdanından) vəhşi it kimi təcavüz etdi. Beləliklə, Diclenin onsuz da bütün mənliyini qapsayan intiqam və çarəsizlik hissini ruhsuzluq və əxlaqsızlıq əvəz etdi. Həm də əbədi olaraq.

Yazıq qız çırpınır, durmadan “etmə! eyləmə!” desə də, hönkür-hönkür ağlayıb yalvarsa da, oğraşlığı bir xarakter olaraq mənimsəyən Bahoz onu qətiyyən dinləmədi. Bir...iki...üç... Təcavüzlərin sayı getdikcə artdı. Və gün gəldi qız artıq düşdüyü duruma öyrəşdi (bəzən çarəsizlik bizi öz zalım caynağına elə keçirir ki, mübarizə aparmaqdansa, zülmdən həzz almağı seçirik). Qızın intihar edəcəyindən və ya qaçacağından qorxan (çünki eyni hərəkəti o, onlarla gənc qıza qarşı etmişdi və bir neçəsi dözməyib özünü öldürmüşdü) qart Bahoz yalandan onunla evlənmək vədini ortaya atdı. Beləcə, etdiyi vəhşiliyə haqq qazandırdı öz aləmində.

Zaman keçdikcə savaşın yazılan, yazılmayan bütün qanunlarını öyrənən Dicle sözün həqiqi mənasında peşəkar qatil, bacarıqlı döyüşçü, qorxulu terrorçu oldu. Ona ardı-arası kəsilməyən sifarişlər, tapşırıqlar verirdilər. Sırf bədən quruluşunun gözəlliyi və işvəsi sayəsində ələ alıb “köləsi” etmədiyi, sonra dəhşətli şəkildə (onun öz xüsusi ölüm qaydaları vardı: məsələn, insan vücudunu anında məhv edən zəhərli maddə “sianid”-lə öldürmək) qətl edirdi. Axırıncı dəfə öldürdüyü adamsa vaxtilə ailəsini məhv etmək əmri verən, hazırda təqaüddə olan Türk polkovniki Necati Aklanmaz idi.

Rəqiblərini məhv edərkən onlarla cinsi əlaqədə olmaqdan çəkinməyən, buna sadəcə bir döyüş vasitəsi kimi baxan Dicleni bu hala salan elə Bahozun özü idi: ilk dəfə yeddi il əvvəl ələ keçirilməsi haradasa mümkünsüz olan, ancaq xüsusi səylər nəticəsində (Dicle onunla bir gecə əyləncəsində tanış olmuşdu) tutulan Özəl Hərəkat komandiri Tarık Yakarı aldadıb qaçırmaq üçün onunla bir yatağa girmişdi Dicle. Və o andan etibarən daha da

qəddarlaşıb ancaq və ancaq öz məqsədinə çatmaq üçün hər vasitəyə əl atan gənc terrorçu, namusu ilə birlikdə bütün insanlığını da itirdi.

Bir tək azyaşlı uşaqlarla iş görməyin (PKK çox vaxt ölkədaxili narkotik ticarətini və orqan alverini günahsız körpələr vasitəsiylə həyata keçirir) tərəfdarı olmayan Dicle bu kimi mövzularda dəfələrlə istər Bahozla, istərsə də digər rəhbərlik qrupuyla sərt mübahisələrə qatılmışdı. O, hesab edirdi ki, düşmənləri məhv etmək, tapşırıqları yerinə yetirmək üçün hər şeydən xəbərsiz və tamam məsum olan uşaqlara toxunmaq olmaz. Baxmayaraq ki, tez-tez içində peşmançılıq hissi yaşayan Dicle bu cəhənnəmə elə uşaq vaxtı düşmüşdü...

*Əslində hər şey, bölgədə (Yaxın Şərq) söz sahibi olmağa çalışan, öz mənfur planlarını həyata keçirən, bundan ötrü minlərlə günahsız insanın qanına girməkdən usanmayan xarici qüvvələr tərəfindən idarə olunurdu. Vaxtilə Türkiyə daxil olmaqla, digər bölgə dövlətlərini öz qanlı caynaqlarına almağa çalışan SSRİ (o vaxtkı Rusiya rəhbərliyi və hazırkı Rusiya hakimiyyəti), Amerika, Avropa və b., PKK kimi onlarla terror təşkilatını yaratmış (güclənməsi üçün dəstək vermiş), bölgə xalqlarını bir-biriylə dini, etnik, sosial zəmində qarşıdurmalara vadar etmişdir. Səbəb, get-gedə oyanan, öz milli haqlarını savunan (Türklər başda olmaqla) və bölgəyə nəzarət etməyə çalışan millətləri parçalamaq, məqsəd isə, onları kölə etmək, öz qan imperatorluqlarının böyüməsinə mane olmasını əngəlləməkdir...*

Amma hər hekayənin sonunda xüsusi bir sürpriz olduğu kimi, bu hekayədə də başdan axıra gözlənilməyən bir sürpriz vardı. O da...

Soyca Qaraçay Türklərindən olan gənc igid döyüşçü Baybars Kağanlı komandirinin hücum əmrini duyar-duymaz yaxınlığındakı digər altı Özəl Hərəkat birliyi əsgəriylə birlikdə çadırlara doğru hərəkətə keçdi (bu zaman o Qaraçay Türklərinin milli ruhlu, əfsanəvi rəqsini duyurdu - qulaqlarında, bütün vücudunda). Ard-arda ildırım sürətiylə terrorçulara doğru güllələr yağış kimi yağmağa başladı. Qəhrəman Türk əsgərləri uğrunda canlarını fəda etməyə and içdikləri müqəddəs vətən torpağını öz varlığıyla kirlədən düşmənə amansız üzlərini göstərib layiqli cəzalarını verirdi: cəmi bir neçə saniyədə 10-dan çox terrorçu cəhənnəmə vasil oldu. İçəridə - toplantı çadırındasa vəziyyət tamam başqa cür idi: çöldəki atəş səslərindən təlaşlanan Bahoz Barudi və Firuz Kaşğani (şəxsən o, yüzlərlə günahsız Türkün qətlinə imza atanlardan biri idi – İranda) əllərini bellərindəki rus "Makarov"-larına atmaq istərkən heç vaxt ağıllarına belə gətirmədikləri bir hadisə oldu: onları qorumalı olan Dicle belindən iki silah çıxarıb dərhal başlarına tuşladı. Hər ikisi qorxudan və ani keçirdikləri təəccübdən yerlərində donub qaldılar...

Təxminən 3 il bundan əvvəl idi. Özəl Hərəkat xüsusi bir əməliyyatla çoxdan axtarışında olduğu Dicleni ələ keçirdi. Əməliyyata bacarıqlı kəşfiyyatçı Baybars Kağanlı başçılıq edirdi: o zamanlar Dicle ard-arda 3 yüksək rütbəli Türk zabitini öldürmüşdü və vəziyyət gərgin olduğu üçün bir meşədə gizlənirdi. Qəfil bir hərbi helikopterin gizləndiyi evin üzərində peyda olduğunu gördü, qaçmağa macal tapmamış Baybarsın ani hücumuyla yaxalandı.

Uzun müddət dindirmələr, yorucu sorğu prosesi getsə də, Diclenin danışmaq – üzvü olduğu təşkilatını satmaq fikri yox idi. Ancaq onun yaşıdı olan gənc dəliqanlı kəşfiyyatçı Baybars bir qədər sonra hansı yollasa Dicleni ələ ala bildi və bu zamana qədər onlarla güc strukturunun yüksək çinli zabitini qətl edən əsrarəngiz gözəlliyə sahib olan terrorçu qız əməkdaşlığa razı oldu.

Dicle bir səbəbə görə cəhənnəm yoldaşlarını satdı: məsələ burasındaydı ki, Baybars, Dicle haqqında uzun müddət öncə xeyli məlumat toplamış və ailəsinin faciəsini öyrənmişdi. Xüsusi araşdırma zamanı məlum olmuşdu ki, əslində heç də hər şey Diclenin bildiyi kimi deyildi: vaxtilə onun ata-anasını Türk höküməti deyil, məhz çiyin-çiyinə vuruşduğu, həyatını uğruna puç etdiyi PKK məhv etmişdi: sadəcə oyunu quran qurmuşdu

və nəticədə bir Türk zabiti, Türk müdafiə orqanı və Türk hökuməti ləkələnmişdi, yeniyetmə kürd qızı əbədi olaraq öz vətəninə xəyanət etmişdi, terror qruplaşmasını idarə edənlərsə məkrli planlarını onlarla məsum gənc kimi Diclenin vasitəsiylə həyata keçirə bilmişdi.

Baybars ilk dəfə bu əsrarəngiz gözələ rastladığında (hələ yalnız şəklini gördüyü zaman) ondan xoşlanmış, amma yenə də gözlərindən, baxışından daxili nifrətini, insanlara bəslədiyi kinini duyğu üçün ürəyində ona qarşı yaranan səmimi hisslərindən tez də vaz keçmişdi. Çünki düşünürdü ki, bu bir yanılmadır. Sonradan canlı olaraq gördüyü andasa fikirləşdi ki, Dicledəki gözəllik gül ətri deyil, qan qoxur və bu qan yüzlərlə məsumun qanıdır. Ancaq anlaya bilməmişdi ki, bu gənc qızı uçuruma yuvarlayan, sonradan insanların "tale, qismət" adlandırdığı xoşagəlməz bütün təsadüflərin təməlində başqa güclər, bilavasitə İblisin yer üzündəki xidmətçiləri vardır. Və onlar hər kəsə olduğu kimi, gənc kürd gözəlinə də böyük, anlaşılmaz bir oyun oynamışdılar. Bu oyunu isə təəssüflər olsun ki, hələ də sadə insanlar – bölgənin yerli xalqı anlamır, bəlkə uzun müddət anlamayacaqdı...

*Yüzillərlə bir yerdə mehribancasına yaşamış millətlər hər hansı üçüncü şəxslərin - xarici qüvvələrin fitnəsi əsasında tədricən bir-birinə düşmən olmuş, necə deyərlər, dünən birlikdə çörək kəsənlər bu gün bir-birinə güllə atmağa vadar olmuşdular...*

Bir dəfə, Baybars və Dicle başı bəlalı olan və tarixin hər sifətini görmüş Dəclə (Dicle-Diclə) çayının sahilinə gəldilər. Çay hər zaman olduğu kimi indi də sakit, öz axarında idi və olduqca möhtəşəm bir gözəlliyə sahib idi. Ancaq bu gözəlliyi bircə şey pozurdu: qüsursuz mənzərə bir ləkəylə göz alıcı görüntüsünü itirmişdi. Bəli o, məhz qan qoxusu idi. **Qan qoxan gözəllik** (Dəclə, uzun illər müxtəlif səbəblərdən bir-birinə düşmən olmuş qohum tayfaların, qonşu ölkələrin, qardaş millətlərin savaşına, necə deyərlər, bir qardaşın digər qardaşı necə qətl etməsinə şahid olmuş, xainlər və onların arxalarındakı düşmən qüvvələr tərəfindən qurulmuş haqsız düzənə etiraz edərək üsyan etmiş – çağlamış, aşmış, daşmış, amma təəssüflər olsun ki, sonda bir-birini uf demədən öldürən igidlər kimi qanına bələnmişdi - zaman-zaman qanla bəslənmişdi)...

Dicle, nə onun həyatını, arzularını oğurlamış Bahoza, nə də eyni duyğular içində olan, əli yüzlərlə günahsız insanın qanına batmış İran casusu Firuza acımadı. Onları bir göz qırpımında, açıqlama vermədən güllələdi. Baxmayaraq ki, bu vaxta qədər o düşmən hesab etdiyi kimsəni belə sadə ölümlə ödülləndirməmişdi. Sadəcə Baybarsla tanış olduğu bu son 3 il ərzində sanki hər mənada dəyişmiş və içində qeyri-adi bir insani saflıq yaranmışdı. Və bu murdar varlıqlara bəlkə də qızıldan qiymətli vaxtını həsr etmək istəmədi daha Dicle.

Beləcə, əməliyyat uğurla başa çatdı. Amma Özəl Hərəkata bu miskinlərin canlı ələ keçirilməsi lazım idi. Baybars öz yoldaşlarıyla çadıra qədəm qoyduğu zaman Diclenin üstü qandı (Bahoz və Firuzun qanı üzərinə sıçramışdı) və o indi həqiqətən qan qoxurdu.

Baybars komandirinin qəzəblənəcəyini də unudub düşmənin meyidini nəzərə almadı. Gülümsəyərək yaxınlaşdı. Dicle de ona gülümsəyirdi. Və bu səfər onun gülüşündə heç bir kinayə və ya başqa məqsəd yox idi. Bu, saf məhəbbət nişanəsi idi. Gənc Türk kəşfiyyatçı artıq Dicleni günahkar hesab etmirdi. Çünki son üç ildir hazırlaşdıqları bu əməliyyatla Dicle öz günahlarını aşiq olduğu kişinin gözündə yumuş hesab edirdi.

Baybars silahını yerə qoyub Dicleyə daha yaxın oldu. Sadəcə üç ildən bəri görüb könül verdiyi gözəli öpmək istədi: qan qoxan gözəli...

***19.03.2017***

# ƏCƏM QIZI
***(hekayə)***

Təxminən 500 il bundan öncə olardı... Qüdrətiylə dünyanı lərzəyə gətirən iki nəhəng Türk imperiyası – Osmanlı və Səfəvi xanədanlığı, ikiüzlü, mənfur Avropanın illərdir planlaşdırdığı, amma həyata keçirməyə cəsarət etmədiyi "böyük oyun"-a təəssüflər olsun ki aldanmışdı. O zamankı Avropa dərin dövlətinin əsas beyni olan Vatikan və Venesiyanın xüsusi olaraq yetişdirdiyi və hər iki Türk imperatorluğunun içinə yerləşdirdiyi, əsasən "milli azlıq"-lardan təşkil edilmiş casuslar neçə il durmadan məharətlə çalışmış, nəhayət iki qardaşı – Sultan Səlim və Şah İsmayılı savaşa sürükləmişdilər. Dünyanı titrədən, qorxuya salan bu iki imperiya artıq bir-biriylə savaşa başlamışdı...

Əcdadları Qamların – Şamanların beş min il öncəki ənənəvi prinsiplərini unutmamış, amma yeniləşmiş, 16-cı əsr şəraitinə görə formalaşmış, daha da təkmilləşmiş dini-fəlsəfi cərəyanın hamiləri olan Dərvişlər, Şeyxlər, Sufilər ocağı Ərdəbildə isə bu savaşın təsiri güclü olsa da, fani aləmi elə də önəmsəməyən, mənəvi saflığın qazandırdığı ilahi ucalıqla bərabər yüksək insani keyfiyyətlərə malik bir qrup dərviş Uca Tanrıya eşqlərini minillərin müqəddəs alətləri saz, qaval, balaban, tar, kamança vasitəsiylə qeyri-adi şəkildə tərənnüm edirdilər:

Ulu Tanrı adın tutub,
Qutlu Şaman yolun tutub,
Hər cür münkiri unudub
Gəldik yola, bə hey Dərviş,
Dola-dola, bə hey Dərviş...

Biz "Ol" Tanrıdan gəliriz,
Tanrı haqqın Söz biliriz,
Qutlu "Söz"-dür Türk dilimiz,
Gəldik yola, bə hey Dərviş,
Dola-dola, bə hey Dərviş...

Haqq üçün "HÜ" söylərik biz,
Qutlu cihad eylərik biz,
Haqq-dan rıza dilərik biz.
Gəldik yola, bə hey Dərviş,
Dola-dola, bə hey Dərviş...

Hünkarımız Xızır Sultan,
Qutlu Ruh-dur gerçək olan,
Biz Əliyə tutduq ünvan,
Gəldik yola, bə hey Dərviş,
Dola-dola, bə hey Dərviş...

"Dörd Ünsür"-ün hamisiyik,
Şərqlə Qərbin varisiyik,
Biz Tanrının bəndəsiyik,
Gəldik yola, bə hey Dərviş,
Dola-dola, bə hey Dərviş...

Bu və sairə ifadələrlə, sözlərlə, müxtəlif şeir parçalarıyla öz "ibadət"-lərini davam etdirən dərvişlər eyni zamanda məlum qardaş qırğının qarşısını ala bilmədiklərinə görə də ah-nalə edirdilər:

Qərib qardaş, mən ellərdən uzağam,
Könlüm orda, cismim ilə irağam,
Vallahi bil, mən yağıdan qırağam,
Üzərimə qılınc ilə gəlmə sən,
Ol yaralı bu qəlbimi dəlmə sən...

Qərib qardaş, heç bilmədim nec oldu,
Yağı məndən, yağı səndən bic oldu,
Fani oldum, fikrim-zikrim güc oldu,
Üzərimə qılınc ilə gəlmə sən,
Ol yaralı bu qəlbimi dəlmə sən...

Qərib qardaş, qılınc kəsər, qan axar,
Bir yağıdan bir yağıya yol çıxar,
Biz vurarıq özümüzü, o, baxar,
Üzərimə qılınc ilə gəlmə sən,
Ol yaralı bu qəlbimi dəlmə sən...

Qərib qardaş, Çaldıranda can dedim,
Düşmən oldum mən özümə, "qan" dedim.
Vur atəşi, vur könlümə, "yan" dedim.
Üzərimə qılınc ilə gəlmə sən,
Ol yaralı bu qəlbimi dəlmə sən...

Tanrı üçün, axı bu savaş niyədi?
Sağım, solum, önüm, arxam tiyədi,
Dün "qardaş" dediyim bu gün neylədi,
Üzərimə qılınc ilə gəlmə sən,
Ol yaralı bu qəlbimi dəlmə sən...

Bu dəmdə Ərdəbilin qıraq kəndlərindən birində, bir sənətkar ailəsindən olan Banunur adlı Türk qızı (Azərbaycan Türkü) rəfiqələriylə birlikdə bulaq başına, su götürməyə çıxmışdı. Elə bu zaman Türkman məmləkəti Azərbaycan sərhədlərini artıq keçmiş Osmanlı ordusunun bir dəstə yeniçərisi Ərdəbil yaxınlarında kəşfiyyat, izləmə əməliyyatını keçirməkdə idi. Olduqca ayıq-sayıq Qızılbaş (Azərbaycan) qorçu-larının (xüsusi əsgər növü) ucu haçalı, girdimi- çıxmayan qılıncına tuş gəlməmək üçün isə yeniçərilər tədbiri-qiyafət olub (əyinlərini dəyişib) məmləkətin hər bir yanına dolmuşdular. Gənc, igid Osmanlı yeniçərisi Mehmet də təsadüfən elə o civarlardaydı...

Mehmet vaxtilə Osmanlının İstanbulun fəthi zamanı Sultan II Mehmet-ə xüsusi bacarığı və ağlıyla xidmət etmiş, mənfur Bizansa qan uddurmuş, qəhrəman Siracoğlu soyundan idi. Atası Murad xan Mehmetə bu adı igidliyi və ağlı ilə dünyaya səs salan, dövrün hökmdarlarına nümunə olan Sultan II Mehmet-ə bənzəsin, taleyi onun kimi olsun deyə qoymuşdu. Bu nəsil Osmanlıda yüksək vəzifələr tutmasa da özəlliklə hərb sahəsində daima xüsusi bacarıqlarıyla seçilirdi. Elə Mehmet də qətiyyən əcdadlarından fərqlənmirdi. Qolunun gücüylə, ağlıyla, xüsusi məntiqi yanaşma tərziylə xidmət etdiyi bölükdə qısa zamanda nüfuz qazanan bu gənc yeniçəri Savaş başladığı andan Sultanın xüsusi kəşfiyyat taboruna göndərilmişdi. O tabor ki Səfəvi ordusunun və dövlətin bütün gücünü qısa zamanda hesablamalı və Sultana vaxtında xəbər verməli idi. Bu qəhrəman yeniçərilər sayəsində Sultan Səlimin gücü iki qat artmışdı. Amma bütün Türklər kimi Mehmet də bu savaşı yaxşı qarşılamırdı. Lakin nə etmək olar, feodalizm dövrü idi. Heç kəsin şəxsi düşüncəsi ölkə rəhbərliyi üçün maraqlı deyildi. Sultana və ya mərkəzi hakimiyyətə qarşı səsləndirilən istənilən fikir "üsyan" kimi qiymətləndirilir, qısa zamanda fikrin sahibi, sahibləri tapılır, özəl "cəllad" qrupu vasitəsilə məhv edilirdi. Beləcə Mehmet məcbur da olsa sadəcə "düşmən" adlandırılan Səfəvi xanədanlığına qarşı kəşfiyyat

əməliyyatında iştirak etməli idi. Üləma fətva vermiş, Sultan bu fətvanı təsdiqləmiş, sərəncam imzalanmış, orduya “hücum” əmri verilmişdi. Bu əmrə qarşı çıxan hər kəsi öz qohumları, hətta nəsliylə birlikdə “xain” statusuyla ölüm gözləyirdi...

Mehmet Banunur ilə qarşılaşanda Banunur bulağın gözündən su içirdi. Bir anlıq yanındakı iki əsgər yoldaşından ayrılan Mehmet qarşısındakı gözəlliyin Tanrıdan endiyini yəqin etmişdi. Sanki o Allah bəndəsi deyildi. Sanki o, Tanrının yer üzündəki təcəssümü olan gözəl bir mələk idi. Bəli ona ancaq bu adı vermək olardı, “Mələk”...

Baxdıqca doya bilmirdi, gənc yeniçəri. Ağlında min cür fikirlər dolaşırdı. Görəsən ona yaxınlaşıb danışa bilər. Çox yox, cəmi üççə kəlimə kəsmək istəyirdi Banunur ilə Mehmet. Ancaq, ancaq buna cəsarət edə bilmirdi. Aman Allah, həqiqətən də eşq başqa bir aləm imiş – deyə düşündü Mehmet. Yaşı iyirmini adlamış olan bu gəncin başından bu zaman qədər belə bir eşq, məhəbbət macərası keçməmişdi. Sırf ona görə idi ki, indi, gördüyü, elə o andaca vurulduğu, aşiq olduğu gözələ cəmi bir neçə addım məsafədə olan Mehmetin ağzını, əlini, ayaqlarını sanki gözəgörünməz bir qüvvə bağlamışdı. Elə hey baxdıqca baxırdı...

Mehmetdən bir iki yaş aşağı olan Azərbaycan gözəli Banunur isə hələ ki onu görməmişdi. Suyunu içib qabını doldurmağa başlayan anda isə sanki göy guruldadı, Mehmet istiqamətində yer yarıldı, dağlar, dərələr dilə gəldi və nəhayət bir müddətdir onu izləyən Mehmeti gördü. Gördü, elə gördüyü andaca Mehmetin bayaqdan yaşadığı hisslərin təsirinə qapıldı. Bir andaca əlləri boşaldı, ayaqları tutmaz oldu, gözləri, üzü qızarmağa, yanmağa başladı, Tanrının qeyri adi gözəllik bəxş etdiyi bu gənc qızın. Və elə o zaman, o möhtəşəm an baş verdi. Gənclər bir-birinə baxdılar və hər ikisi eyni anda gülümsədilər. Bundan sonra əslində bir-birinə düşmən iki məmləkətin bir fərdi olan gənclərin dərin, tükənməz və ilahi saflıqla eşqi başladı...

Yanındakı qızların gülüşmələri Banunuru, arxasındakı əsgər yoldaşlarının çağırışları da Mehmeti yolundan döndərmədi. Keçən bir neçə dəqiqə ərzində gənclər bir birinə o qədər həvəslə, məhəbbətlə baxaraq yaxınlaşmışdılar ki, artıq cəmi yarım addımlıq məsafədə idilər. Gözləri gözlərinə, dodaqları dodaqlarına, əlləri əllərinə yaxınlaşırdı get-gedə, bu hər şeydən xəbərsiz gənclərin. Mehmet bütün savaş düşüncəsini, verilən əmrləri, xüsusi tapşırıqları vecinə almadan, düşdüyü hazırkı durumun yalnız gözəlliyi haqqında fikirləşərkən, Banunur da qarşısındakı igidin Osmanlı olduğunu qətiyyən ağlına belə gətirmirdi...

Mehmet vurulduğu gözəlin gözlərinə həyəcanla baxaraq özündən qeyri-ixtiyari şəkildə bir qədim türkünü zümzümə etməyə başladı:

Yürüyərək sən ovaya çıxınca,
Əylən, bu ovada qal, Əcəm qızı,
Oğrun-oğrun niqab altdan baxınca,
Canım tələf olar, ey Əcəm qızı...

Səni sevən oğlan neyləsin malı,
Yumduqca gözündən tökər mərcanı,
Burnu fındıq, ağzı qəhvə fincanı,
Şəkərmi, şəkər, bal, Əcəm qızı...

“Əcəm” sözü ta Xilafət zamanından Şərqdə yayılmış söz idi. Ərəblər bütün Yaxın Şərqi, Azərbaycanı və digər əraziləri tutduqdan sonra inzibati idarəetmə məqsədiylə, hərb sisteminin qayda-qanununa görə işğal olunmuş zonalarda bütün vilayətlərdə həm coğrafi, həm də etniksəl anlamda bölgü aparırdılar. Bu bölgü Xilafət dağıldıqdan sonra da xalqın zehnində, dilində qalmış və keçmiş Xilafət ərazisinin “ərəb yaşamayan” hissəsinə həm coğrafi məkan, həm də etnik kimlik anlamda “Əcəm” deyilməyə davam edilirdi. Əcəm diyarı çoxunluğu Türklər yaşayan böyük bir ərazi idi. Burada eyni zamanda farslar, əfqanlar, digər millətlərin nümayəndələri yaşasa da, tərkibinə Ərəbistan sərhədindən tutmuş, Orta Asiyaya qədər bütün torpaqlar daxil olan bu məmləkətdə ta 20-ci əsrə qədər Türklər hökmranlıq etdi...

Osmanlıların Qızılbaşları – Azərbaycan Türklərini “Əcəm” adlandırmasının səbəbi də bəzi “agent” tarixçilərin fərziyyəsi olan “düşmən” və s. anlamında deyil, Xilafət zamanındakı coğrafi məkan anlamında idi. Səfəvi torpaqlarına “Əcəm diyarı”, Qızılbaşlara “Əcəmlər və ya Əcəmlilər” deyən Osmanlılara isə Səfəvilər də öz növbəsində, yenə də coğrafi məkan anlamında “Rumlar, Rumlular”, Osmanlı imperatorluğunun ərazisinə isə “Rum diyarı” deyirdilər, bütün tarix boyu. Bununsa səbəbi sadə idi. Osmanlının yerləşdiyi əsas ərazi keçmiş Bizans, yəni Şərqi Roma İmperiyası ərazisi olduğu üçün hətta Osmanlılar özləri özlərini belə, çox vaxt bilərəkdən və fəxrlə (Romanın varisi kimi) “Rumlar, Rum diyarının sahibləri” adlandırırdılar. Bu faktı Osmanlı Sultanı II Bayazidin taxta çıxdığı zaman özünü “Rum Sultanı” elan etməsi təsdiqləyir. Bu adət ənənə isə ta Xilafət zamanından müsəlman Şərqində yayılmış bir xüsusi qayda idi. Bir məmləkəti tutan hökmdar və ya sərkərdə digərlərinə daha çox təsir etmək üçün, səltənətdə nüfuz qazanmaqdan ötrü işğal etdiyi yerin adını öz adına əlavə olaraq “təxəllüs” kimi götürürdü. Beləliklə Əcəm və Rum adları özünə Türk imperatorluqları tarixində xüsusi yer qazanmışdı...

Bir-birinə ani bir baxışmadan aşiq olan bu iki məsum Türk gəncinin taleyisə heç də xəyal etdikləri kimi gözəl olmadı. Ətraf aləmdən ruhən uzaqlaşan Mehmet və Banunur elə o zamandan toplumun qınağına, təzyiqinə, sərt müqavimətinə rast gəldi. Mehmet bir “Əcəm qızı”-na göz qoyduğu üçün öz silahdaşları, Banunur isə rəfiqələri, tanışları, daha sonradan valideynləri tərəfindən ağır suçlamalarına məruz qaldı. O gündən sonra düz 7 gün ard-arda o bulağın başında gizlicə görüşən gənclərin məhəbbəti nakam oldu. Mehmetin bir Osmanlı, Rum əsgəri olduğu bilindi, Qızılbaş qorçuları onu uzun müddət təqib etdi. Banunursa atasının sərt mövqeyi qarşısında aciz qaldı. Ona evdən çölə çıxmaq qadağan edildi. Hətta rəfiqələriylə belə görüşə bilmədi, yazıq qız. Və nəhayət hər iki aşiq son çarəni birlikdə qaçmaqda gördülər.

Gizlicə məktublaşaraq görüş təyin edən Mehmet və Banunur Təbrizə qədər qaça bildilər. Orada isə onları Şahın qorçuları həbs etdi. Aləmə dərs olsun deyə Təbriz meydanına gətirilən gənclər öncə kürəkləri qançır olana qədər “şallaq” cəzasıyla cəzalandırıldılar, daha sonra dar ağacına gətirildilər. Xüsusi məhkəmə quruldu meydanda. “Bismişah, Allah, Allah” sədalarıyla gələn üzü niqablı, siyah əlbisəli cəllad qrupu Mehmetlə Banunuru yanaşı, bir-birini görə biləcək şəkildə dar ağacına bağladı. Ayaqları altında kəsilmiş kötük parçası olan gənc aşiqlər son dəfə bir-birilərinə baxdılar, böyük həsrət, ilahi eşq, saf insani duyğularla...

“Allahu-Əkbər” sədaları altında xüsusi Osmanlı qrupu da meydana təşrif etdi və iki dövlətin “xainləri” qismində tutulan, əslində günahları sadəcə sevmək olan Mehmetlə Banunurun edam mərasimində iştirak etdi. Onlardan biri özlərini – Sultanımız, İslamın hamisi Yavuz Sultan Səlimin ədalət qoruqçuları – deyə təqdim etdi. İcra olunan bu məhkəmə prosesi, o zamanın az-az görünən və hökmdarların xüsusi nümayəndələrinin iştirakıyla təşkil edilən nadir mühakimə mərasimlərindən biri idi.

Nəhayət, o acılı, ürək ağrıdan səhnə icra olundu. Üzü niqablı cəlladlar eyni anda Mehmetin və Banunurun ayaqları altındakı kötüklərə təpik vurdular. Beləliklə iki sevən qəlb bir neçə saniyədən sonra son dəfə çırpınaraq əbədiyyən durdu. Son dəfə bir-birinə baxan iki sevən göz də birdəfəlik yumuldu...

Tarixdə belə hadisələr çox olmuşdur. Lakin Mehmet və Banunur eşqi qədər saf, ani, və mənasız düşmənçiliyin iç üzünü açacaq qədər ali olmamışdı. Bu iki məsum gəncinsə məhkum olunmasında bir qeyri-adi və gizəmli fakt vardı. Osmanlı və Səfəvi tərəfdən mühakimə prosesinin başında və icra edilməsində heç bir Türk iştirak etməmişdi. İştirakçılar fars, kürd, ərəb və yunan mənşəli idi... Hadisədən xəbər tutan hər kəs uzun müddət bu məqam haqqında xeyli düşündü...

***26 oktyabr 2016***

# Həzin melodiyalar...
***(hekayə)***

Sabah günəşi və ən az onun qədər möhtəşəm idi dalğaların qumlu sahili yuması... Bir anlıq sanki fonda bir piano da çalmağa başladı öz həzin melodiyası ilə bu əsrarəngiz gözəlliyə rəng qataraq...

Ancaq sabahın 7-sində sırf dənizi seyr etmək və qarma-qarışıq ruhuna dərin bir sakitlik və hüzur gətirmək üçün çıxan cütlüyün bu həzinliyin, bu əsrarəngizliyin arxasındakı çılğın hadisələrdən hələ ki xəbəri yox idi. Bilmirdilər ki, bu gün belə gözəl başlayıb belə də bitməyəcək... Bəlkə də ədəbiyyatda tez-tez işlənən və artıq ümumişlək ifadə olmuş “fırtına öncəki səssizlik” məhz indi buraya uyğun idi. Bəli. Eşqin, gözəlliyin tərənnümü olan bu özəl mənzərəyə...

Sahildə bir barakda qalan bu gənc cütlüyü isə indi heç nə maraqlandırmırdı. Bir tək ayaqlarını yalayan mavi dənizin sakit suları və baxdıqca həzz aldıqları səhər günəşinin əvəzsiz gözəlliyini seyr etməkdən başqa... Nədəndir bilinməz, amma bir-birinə olduqca saf və möhkəm hislərlə sarılmış olan bu cütlük bir neçə anlıq da olsa, hər şeyi: bütün problemlərini, həyat qayğılarını, bütün keçmişləri, düşündükcə insanı dərin bir kədərə boğmağa çalışan dünənləri unutmaq istəyirdilər. Sanki bütün “gerçək” adlanan hər şeydən uzaqlaşmaq və bir-birinin ağuşunda xoşbəxt anlar yaşamaq istəyirdilər sadəcə. Bəli. Dərin və saf məhəbbətin dadını çıxarmaq, sadəcə...

Ancaq dünənlər bu günü, bu gündəki bu gözəl cütlüyü rahat buraxmayacaqdı deyəsən. Məhz ona görə, hal-hazırda yaşadıqları bu özəl anların bitməsini istəmirdilər, əsla...

Gəl gör ki, həyat nə qədər zalım idi. Bu gözəlliyi bir göz qırpımında bitirəcək, hər şeyi bütün gözəlliyi məhv edəcək qədər... Bəli. Belə həyata ancaq bu adı vermək olardı: “zalım”...

*20 yaşınızı əgər təzə adlamısınızsa və sizdən başqa hər kəs sizi deyil, üzərinizdə qurduğu planları, məqsədləri düşünürsə, bundan ötrü ağlasığmaz hər şeyə “hə!” deyirsə, o zaman içində yaşadığınız bu həyatın adı ancaq “zalım” ola bilər...*

Dəniz kolleci yenicə bitirmişdi və bir tək arzusu vardı: hələ 2-ci kursda oxuduğu zaman özü də bilmədən, anidən aşiq olduğu, ondan ikicə yaş böyük olan Günəşlə evlənmək... Ancaq fələk Dəniz qədər sadə arzulara malik deyildi və qətiyyən onun xoşbəxtliyini düşünmürdü ki, Dənizin olduqca varlı ailəsini ona qarşı qoymuşdu... Ortayaşlı, həyatını ancaq mənasız maddiyyata həsr etmiş olan ata və heç bir zaman onun sözündən çıxmayan, həyatı yalnız ərinə sadiqlikdə və kölə kimi onun hər arzusuna “baş üstə!” deməkdə görən ana idi zalım fələyin vasitəçiləri. Və onlar bircəcik oğulları üçün çox bəsit və onların diliylə desək “qarantlı” həyat yolunu xəyallarında bir vərəqə cızmışdılar...

Günəşin Dənizdən heç də fərqli həyatı yox idi. Sadəcə maddiyyatın azlığı fərq sayıla bilərdi, əgər bunun bir mənası vardısa... Günəşin də valideynləri qızları haqqında Dənizinkilər kimi düşünürdülər: bir varlı ailənin oğluna ərə vermək, onun vasitəsilə “qırx ilin səfalətindən” beləcə qurtulmaq...

Dənizin atası böyük bir “holdinq”-in başçısı idi və oğlu haqqındakı düşüncələri vaxtilə atasının onun haqqında düşündükləri ilə eyni idi: özündən sonra bir varis, tanış biznesmenin qızıyla izdivac, “elitan” cəmiyyətin yeni bir nüfuzlu üzvünü meydana gətirmək və s... Amma Dəniz sahib olduğu kiçik rəsm

emalatxanası, daim əlaqə saxladığı sənətkar dostları və aradabir qatıldığı müsabiqələrlə xoşbəxt idi, həm də atasının əsla hiss etməyəcəyi qədər çox...

Sırf ona görə, Dəniz də, Günəş də valideynlərinin onlara biçdiyi bu "kiflənmiş" kaftanı geyinmək istəmirdilər. Ataları, babaları və onlardan öncəkilər kimi boğulmaq istəmirdilər miskinliyin, mənasızlığın zalım bataqlığında...

Dəniz atasının istədiyi deyil, tamamən fərqli bir kollecə imtahan verən zamandan atası ona təzyiq etməyə başlamışdı. Özü də heç uzun-uzun düşünmədən, ən çox bildiyi bir üsulla: təhsil haqqını və gündəlik xərcini verməməklə... Dəniz məhz xoşbəxt olduğu və özünü bu dünya cənnətində hesab etdiyi bir tanış rəsm emalatxanasında işləməklə qəpik-quruş da olsa, öz alın təriylə qazanırdı təhsili boyunca ona lazım olan pulunu. Bəzənsə pul çatmır, axşamlar dərsdən çıxıb emalatxanaya gedəndə nə qədər yolu piyada getməli olurdu. Ancaq bu əziyyətə, atasının ona rəva gördüyü pulsuzluğa hər şeydən müqəddəs sənəti və oxuduğu zamanlarda tanış olduğu, təhsili bitirdikdən sonra evlənmək istədiyi gözəl, şirin qız olan bəstəboy Günəşə görə...

Günəşin də həyatı təhsil aldığı zaman fərqli keçmədi. O da təbii olaraq maddiyyat sıxıntısı çəkirdi... Anası, atası bir idarənin yeməkxanasında işləyirdi. Az da olsa, qazanırdılar. Ciddi bir çətinlikləri də yox idi. Amma Günəşə bəzən "lazım olandan" çox pul gərək olurdu. Bunu onun atası deyirdi: "sən lazım olandan çox xərcləyirsən!". Amma yazıq qız bəzən evdən yemək yeməmiş gedirdi dərsə və kollecdə bufetə düşməyə belə üzü gəlmirdi cibində pulu olsa da. Çünki o çox qürurlu qız idi. İstəmirdi rəfiqələri arasında bəziləri ona "ata, anan pulu min əziyyətlə qazanır, sənsə burda nə qədər pul xərcləyirsən!" desin... *Niyəsə bəzən öz həyatından narazı olanlar və ya həyatın ləzzətini onun-bunun şəxsi həyatına qarışmaqla duyanlar məhz belə mənasız, çürümüş fikirlərlə boğurlar bizi...*

Hər şey bir yana, Dənizlə tanışlığı ona əsl xoşbəxtlik gətirmişdi. Bəli. Buna məhz belə demək olardı: xoşbəxtlik... Yaxşı yadındadır, 2-ci kursun bitməsinə az qalırdı. İmtahanlara hazırlaşmaq üçün tez-tez getdiyi kollec kitabxanasında qarşılaşdı onunla. Ani bir hadisə: (şablon olsa da) Günəş bir masaya oturub dərslərini hazırlarkən oxumağa bir maraqlı kitab seçən və kitabın sehrindən ayıla bilməyən Dənizin onu görmədən onunla toqquşması... Hər şey çox sadə olsa da, çox gözəl idi Dəniz və Günəş üçün... İndi xatırlayanda dərin xəyallara dalan və saf məhəbbətin həzzini duymaqdan yorulmayan bu cütlük üçün o günün önəmi çox böyük idi... Yazıq qız az qalmışdı masaya uzansın, Dəniz son anda vərəqlədiyi kitabın sehrindən ayıldı və sadəcə qısa səslə "bağışlayın, bilmədən oldu!" deməsi və iki cüt qəhvəyi gözlərin təması... Budur indi onlar sadəcə bir-birinə mənəvi saflıqla, ilahi eşqlə gülümsəyirdilər...

Son gün... Kolleci bitirən ikili bir parkda görüşdü. Bütün hislərini, baş verən hadisələrin qısa xronikasını və valideynlərin qəddar qərarlarını bölüşdülər: Günəşin ailəsi onu tanış bir rayon icra başçısının oğluna ərə vermək, Dənizin ailəsi isə atasının dostunun həyasız, həyatı ancaq bahalı mağazalardan alver etmək və hər getdiyi "nüfuzlu" yeməkxanada sifariş verdiyi (çox vaxt yemədiyi) xarici mətbəxin yeməkləriylə şəkil çəkdirib dərhal Instagram profilində paylaşmaqda görən ruhsuz, həyatın gerçək gözəllikləri qarşısında aciz, bədəncə çəlimsiz bir qızla evləndirmək... Və s...

Və bir-birinə dəlicəsinə aşiq olan bu cütlük axır ki, qərarlarını verdilər. Qaçmaq... Uzaqlara, hər şeydən, bütün sıxıntılardan, ailələrinin və cəmiyyətin mənasız fikir və planlarından uzaq bir yerə... Həm də həmişəlik...

Dənizin işləri son zamanlar çox yaxşı gedirdi. Uzun sürən əziyyət bir fayda vermişdi. Qonşu ölkədə tezliklə böyük bir festival keçiriləcəkdi və Dəniz ora dəvət almışdı. Sevincinin həddi-hüdudu yox idi. Yox ki, bu festival onun üçün böyük əhəmiyyətə malik idi, ona görə ki, canından çox sevdiyi Günəşlə buralardan

uzaqlaşmağa bir bəhanə yaranmışdı. Bəlkə də Tanrı sevə-sevə yaratdığı bu iki cütlüyü axır ki həqiqi xoşbəxtliyə çatdırmaq istəyirdi. Məhz ona görə sonra baş verən bütün hadisələr onların xeyrinə oldu: Dənizin atasının işləri artdı və oğluna vaxt ayırmağa, onunla "məşğul olmağa" imkanı olmadı. Günəşin valideynləri isə daha fərqli bir iş rejiminə keçdilər. İşlədikləri idarə böyüdü və onların qazancı da, iş saatı da artdı. Beləcə cütlük rahatca buralardan getmək üçün imkan qazandılar...

Dəniz festivalda 3-cü yerə çıxdı. Sonralar ard-arda bir neçə sifarişçi ilə işləməli olduğu və onsuz da Günəşlə geri qayıtmaq istəmədiyi üçün tez-tez görüşməyə başladıqları bir dəniz sahilində kiçik də olsa, sadəcə bir barak görkəmi olan evə köçdülər. Bəli. Yaşadıqları yer elə bəlkə də bir barak idi. Amma artıq bunun önəmi yox idi. Çünki cütlük həqiqətən də indi çox xoşbəxt olmuşdu. Günəşsə yalnız bu xoşbəxtliyini tezliklə rəsmi nigah bağlamağa hazırlaşdığı oğlanın ağuşunda deyil, eyni zamanda yaxın kənddə işləməyə başladığı kiçik bir musiqi məktəbində tapmışdı... Bəli. Hər şey beləcə sadə və möhtəşəm idi gənc cütlük üçün...

Ancaq hekayənin başında bildirdiyim kimi, hər şey belə bitməyəcəkdi. Zalım fələk öz çirkli oyununu sona saxlamışdı... Günəşi hələ kollec zamanından bəyənib sevən bir başqa, üçüncü şəxs də vardı: Əhməd adlanan bu oğlan ata-ana tərbiyəsi görməmiş, uşaqlıqdan bütün yaşam qaydalarını, "təhsili" küçədə almış, indi bir gecə kafesində işləyən, xasiyyətcə sərt, düşüncə tərziləsə Dəniz və Günəşin valideynlərindən fərqlənməyən oğlan. Bəli. Tale, qismət, həyat – nə adlandırırsınız, adlandırın ancaq bu şəxsin varlığının törədəcəyi o məlum hadisəyə haqq qazandıra bilməzsiniz!...

Aşiqlər dəniz sahilində gün səmaya tam varana qədər qaldılar. Bu özəl, gözəl, möhtəşəm anları isə bir-birinin nurlu üzünə baxmaqla, bir-birinin xoş ətrini duymaqla və bütün vücudları ilə bir-birinə toxunmaqla keçirdilər. Hər şey o qədər gözə idi ki... Ahh... Günəşin al, olduqca əsrarəngiz şüaları altında sevişmək... Qulaqlarındakı həzin piano və saksofon səsi də elə bil bu möhtəşəmliyə daha çox rəng qatırdı... Hər şey onların eşqini, saf məhəbbətlərini dəstəkləyirdi. Bir tək anidən peyda olan Əhməddən başqa...

Gün səmanın ortasına doğru çatanda aşiqlərin eşqi al qana boyandı: Əhmədin əlindəki ucuz, köhnəlmiş, artıq bəzi yerləri pas tutmuş olan silahdan çıxan xain qurşunun gəncləri anındaca yerə sərməsinə baxmayaraq, onların əsrarəngiz eşqi, o eşqlə alovlanan bədənləri, üzlərinə düşən günəşin nurlu şüaları və yanlarını yalayan çılğın dalğaların rəqsi heç nəyi bitmiş hesab etmirdi, barışmırdı bu zalım və iyrənc həyat oyunuyla... (baxmayaraq ki Günəş Əhmədi tanısa da, ona heç vaxt ümid verməmiş və onu heç bir insan kimi də dəyərləndirməmişdi, ancaq ruhən fahişə olan Əhməd öz aləmində Günəşin nişanlısı sayırdı özünü və Günəşin hazırkı durumunu xəyanət kimi qiymətləndirmişdi.)

Əhməd hər bir sadə qatil kimi sonradan peşmançılıq hissi keçirmədi. Sadəcə içində yenə özünə haqq qazandırmağa çalışaraq uzaq bir üfüqdə qeyb oldu... Dəniz və Günəşsə can verərək hələ də bir-birinə saf eşqlə baxıb gülümsəyirdilər... Dənizin qulağında saksofon, Günəşin qulağında həzin piano səsi...

Hələ Dənizgil bu ölkəyə yenicə gəldiyi zaman qarşısından qol-qola keçdikləri musiqi alətləri mağazasından eşitdikləri o eşsiz, həzin melodiyaların gözəlliyini bir daha xatırlayıb duyduqları özəl hislərin varlığından həzz almağa çalışırdı bu məsum ikili... Və o vaxtkı festivalda iştirak edən rəsmin məzmunu da, adı da məhz belə idi: **həzin melodiyalar**...

*Qeyd: duyduğumuz hər hansı həzin bir melodiyanın ancaq gözəl və müsbət hadisələrin nəticəsi olduğunu düşünsək də, bəzən bu belə olmur. Ancaq yaranan hər gözəl melodiyanın tarixçəsində bu hekayədə olduğu qədər bir saf eşq gizlidir, məsum bir çocuğun gülümsəməsindəki şirinlik qədər...*

***27.01.2018***

# İntiqam və ehtiras
***(hekayə)***

Bu da son... Adətən hadisə, başdan sona doğru anladılır. Ancaq bu hekayədə hər şey tərsinə olacaq. Çünki zaman da, məkan da, insanlıq da olmalı olduğu kimi deyil, tamam tərs məqamlardadırlar...

Cenni son zərbəni endirdikdən sonra Mayklın kəsik başı onun ayaqları altına fırlandı. Cenni artıq ondan qorxmurdu. Bəli. Məhz belə idi. Hətta bu xəstə ruhlu sadistin cansız başına doğru bir müddət baxıb içdənliklə gülümsədi də...

Budur: güllə atıldı və Cenni yara almadan yerə sərildi. O, bunu böyük çətinliklə edə bildi. Maykl “MAGNUM” markalı tapançadan Cenniyə atəş açdığını və onu vurduğunu yəqin etsə də nəticədə Cenninin sağ qaldığını gördükdə çox təəccübləndi və ikinci hücum üçün hazırlaşdı. Ancaq Cenni bir əlindəki tapançada güllə olmadığını çoxdan yəqin etdiyi üçün digər əlindəki qılıncla dərhal – boşa bir saniyə də itirmədən ona doğru hücum etdi...

Artıq otaqda onlardan başqa kimsə yox idi. Cenni fürsətdən istifadə edib ani baxışlarıyla otaqdakı əşyaları gözdən keçirdi. Aha. Deyəsən, nəsə tapdı axı. Bəli. Otağın sağ küncündə ona lazım olan “SAMURAY” qılıncı və bir köhnə markalı tapança vardı. Və Cenni ani hərəkətlərlə onları necə götürəcəyini düşünərkən Maykl əlindəki silahıyla onu hədələdi:

- afərin, deməli sənin üçün hazırladığım xüsusi tələlərdən qurtula bilmisən? – Maykl eqoist baxışlarıyla Cennini süzdü və davam etdi – nədir, oyunun ardını burda davam etdirək, nə deyirsən?

- mən səni öldürməyə gəlmişəm, Maykl. Oyun oynamağa isə vaxtım yoxdur. – bir gözü otaqdakı silahlarda qalan Cenni sərt üz ifadəsiylə bildirdi.

Maykl yenə pis-pis gülümsəməyə davam etdi və silahındakı şəhadət barmağını çaxmağa sıxaraq silahı düz Cenninin ürəyinə doğru nişan aldı. Ancaq o anda Cenni bir ildırım kimi yerindən sıçradı və otağın sağ küncündəki qılıncla tapançanı götürməyə macal tapdı...

Cenni binaya doğru sərt-sərt baxdı və qarşısındakı dəhlizə cəld girdi. Vaxt itirmədən üçüncü mərtəbəyə qalxmaq üçün pilləkənlərə doğru getdi. Dəhlizdə kimsə yoxdu və sanki hər şey öz axarında gedirdi... Nəhayət, Cenni üzərində “MAYKL CONOTAN” yazılan qapı ilə üz-üzə gəldi. Beynində dəqiq bir şey yoxdu, ancaq o, bu an mənfur düşmənindən intiqam alacağına inanırdı. Bir neçə saniyə sakitcə durub qapıya baxdı. Nəsə fikirləşdi. Bəli. Onun silahı yox idi. Bəs qapı açılanda nə edəcəkdi?... Cenni başından bütün əks fikirləri qovdu və qapını sərt yumruğuyla döyəclədi...

Cenni dərhal ayağa qalxıb otağı ələk-vələk etsə də, nə bir silah, nə də üzərində Mayklın yeni ünvanı (Maykl son olaydan sonra Cennidən gizli başqa bir evə köçmüşdü) yazılan dəftər, adi kağız parçası belə tapmadı. Amma son olaraq yenicə boğaraq öldürdüyü adamın ciblərinə baxmağa girişdi. Elə bir neçə saniyə içində cibindən bir bloknot tapdı. Bloknotu açıb baxdığı zamansa üzü böyük sevinclə dolu gülümsəməyə qərq olmuşdu... Birdən çılpaq olduğunu xatırladı və dərhal otaqdakı qarderobdan özünə bir şeylər axtarmağa qərar verdi...

Cenni özündən cüssədə ağır və qol gücündə dəfələrlə yüksək olan daz, qulağı sırğalı, boynu ilan döyməli adamı ayaqlarıyla boğmağa davam edirdi. Çılpaq olması və olduqca cazibədar bədəni hazırda ona çox kömək

edirdi. Çünki qarşısındakı düşmən kişi idi və cinsi tələbatı həddən artıq olan biri idi. Odur ki, Cenninin ayaqları arasından qurtulmaq fikrindənsə o, tamam başqa xəyallara qapılmışdı. Baxmayaraq ki, nəfəsi getdikcə daralır və gözlərinin qabağı qaralırdı. Amma deyəsən, bu acgöz keçəl, Cenninin məhrəm yerlərini görərək, həm də bilavasitə canlı təmasda olaraq canını tapşırmaqdan həzz alırdı...

Cenni öncə nisbətən arıq və cılız olan adama girişdi: onu iki ani əl-ayaq hərəkətləriylə çaşdırdı. Sonra qəfildən havaya qalxıb ard-arda iki güclü təpik endirdi sifətinə. Adam yerə səriləndə başı təsadüfən bir mebel çıxıntısına dəydi və oradaca keçindi. Ardından digər iri bədənli olan kişiyə bərk bir yumruq vurdu və otağın küncünə doğru çəkildi. Özünü qorumağa çalışırdı. Lakin bir yandan çılpaq olması düşüncələrinə təsir edirdi. Sırayla dörd kişi tərəfindən zorlanmasına baxmayaraq o hələ də çılpaq olmasından, yad kişinin qarşısında dayanmasından utanırdı. Qarşısındakının halısa olduqca betər idi. Çünki indi o, Cennini tutmaq və ya döymək barəsində deyil, daha çox lüt bədəninə baxmaqla məşğuldu. Elə bunu fürsət bilən Cenni ani sıçrayışla ona hücum etdi...

Tamamən halsızlaşan Cennini bir evə gətirdilər. Maykl telefon vasitəsiylə adamlarına dönə-dönə tapşırdı ki, nə badə onu gözdən qoyalar, o, çox ağıllı və sərrast qadındır, ehtiyatlı olsunlar. Bu qənaətə üç illik sevgili həyatında gəlmişdi Maykl və demək olar ki, Cennini çox yaxşı tanıyırdı... İki nəfərdən ibarət qrup onu çarpayıya uzatdı və başçılarından gələcək olan yeni əmri gözləmək üçün hərə bir tərəfə çəkildi. Digər iki nəfərsə Mayklın qaçaqmal ilə bağlı yeni xüsusi tapşırığını yerinə yetirmək üçün limana yollandı... Bir neçə saatdan sonra Cenni oyandı. Səsini çıxarmadan evə ani bir nəzər yetirdi. Sonra özündə təpər tapıb ayağa qalxdı. Əynində heç nə olmasına baxmayaraq indi o, ancaq və ancaq odlu, alovlu intiqam haqqında düşünürdü. Ehtiras dolu intiqam, ona illər öncə məktəbin yuxarı sinfində oxuduğu zaman məşğul olduğu əlbəyaxa döyüş idman növünü xatırlatdı...

İki nəfər Cennini arasına alıb durmadan döyür və əynindəki paltarlarını cırırdılar. Digər iki nəfərsə maraqlı bir filmə baxırmış kimi onu izləyərək qıraqda dayanmışdılar. Cenninin az öncə qəbul etdiyi içkinin, içkisinə gizlicə qatılan sabitləşdirici dərmanın təsiri güclü olduğundan o, nə düşündüsə də düşməninə yenildi. Qollarında, qıçlarında taqət qalmamışdı. Və tamamən çılpaq olduğu zaman kişilər ac köpək kimi dördü birdən dözə bilməyib üzərinə şığıdılar... Bir saatdan sonra bədənində dərin ağrı və beynində sarsıntı izləri vardı. Çünki dörd vəhşi ona acımadan və fasiləsiz olaraq ard-arda təcavüz etmişdi...

Maykl, Cennini adamlarına tapşırıb sərxoş vəziyyətdə depodan ayrıldı. Cenni nə edəcəyini düşünərək ətrafında var-gəl edən ac itlərə bənzər adamlara böyük qorxu hissiylə baxırdı. Və beləcə bir müddət acgöz kişilər bu qadınla oynamağa başladılar: əvvəlcə tutub bir-birinin üstünə atırdılar, sonra incə vücudunu, gözəl bədənini vəhşi kimi əzməyə, "oxşamağa" başladılar. Nəhayət, Mayklın tapşırığıyla bir-birinə bağlı şüşə bloklar olan kiçik bir labirintə gətirdilər onu. Və Mayklın öz otağında kamerayla izlədiyi, aradabir mikrofonla danışdığı əsrarəngiz oyun başladı: oyun zamanı Cenni cürbəcür həşəratlarla, böcəklərlə, zəhərli bitkilərin olduğu sahələrlə qarşılaşdı... Çox iztirab çəkdi, incindi, amma bezmədi, yorulmadı, içində tədricən yaranan intiqam hissi ona bütün çətinliklərin öhdəsindən gəlməyə kömək etdi. Ancaq o, qarşıda nə ilə "imtahan" ediləcəyini bilmirdi. Elə bir şey ki, nə edir-etsin əsla dözə bilməyəcəkdi...

Artıq Cenni, qarşısında, sevdiyi, illər öncə aşiq olduğu adamı deyil, tamamən ona yad olan, hətta insanlıqdan çıxmış bir varlığı görürdü... Nə deyəcəyini bilmirdi... Susmuşdu... Bütün hisləri bir anda yox olmuşdu... Vücudu, ruhu donmuşdu... Qadınlıq qüruru alçalmış, məhrəmliyi yox olmuşdu... Namusu tapdanmış, mənliyi kirlənmişdi... Artıq Cenni Şifer tamam başqa birisinə çevrilmişdi...

- bu nə deməkdir, Maykl – Cenni böyük sarsıntı içində soruşdu.
- heeç... – yataqdan cəld qırağa atlanan Maykl əynini geyinərək düşdüyü bu vəziyyətdən çıxmaq istəyirdi.

Yataqda isə çılpaq vəziyyətdə başqa qadın vardı. Qarşılaşdığı bu mənzərə çox ağır idi. Bəli. Qadın üçün kişinin hər qüsuru bağışlanan olsa da xəyanət, özü də doğma evdə, doğma yataqda bir başqasıyla xəyanət... O gün o qadın dərhal evi tərk etdi. Ardından Cenni və Maykl bir müddət mübahisə etdilər. Cenni nə qədər etdisə də Mayklı bağışlaya bilmirdi. Amma üç illik gözəl sevgili həyatlarının üstündən xətt də çəkə bilmirdi... O gecə isə dəhşətli bir şeyin başlanğıcı oldu: Maykl bir dostundan aldığı yeni narkotik maddəni sınadı. Amma qısa zamanda pis günə qaldı: özünü itirdi. Qısa müddətdə dəyişilib başqa adama çevrilmişdi: əslində daxilindəki, içindəkini - gerçək Mayklı ortaya çıxarmışdı o maddə. Hansı ki, hələ Cennilə tanış olmamışdan qabaq bir müddət psixoloji gərginlik yaşayan Maykl sadizmə meyllənmişdi. Ard-arda bir neçə məşuqəsini müxtəlif cür dəhşətli oyunlarla bərbad hala salmışdı... O günü yoluna qoymaq üçünsə birtəhər Cennini dilə tutdu və söhbət etmək üçün yaxınlıqdakı bara getdilər. O barda da Maykl bir dostunun köməyilə Cenninin içkisinə xüsusi maddə qatdı. Sonra onu hamıdan gizlədiyi, qaçaqmal saxladığı özəl deposuna gətirdi. Və burada Cenni nə baş verdiyini anlamağa çalışırdı...

Yataqda Cenni və Maykl qol-boyun olmuşdular: dərindən, içdən, saflıqla bir-birilərinə sevgilərini göstərirdilər. Hər ikisi günahsız ruhlar kimi çılpaq və Mələkələr qədər azad idilər. Özəlliklə durmadan sevdiyinin boynunu, boğazını öpən, dişləyən Cenni hər sevgi inildəməsi zamanı daha da gözəlləşir, Mayklın gözündə əvəzi olmayan qadın obrazına çevrilirdi. Ağuşundakı yarına o qədər dərin məhəbbətlə baxırdı ki Maykl, ya da elə hiss etdirirdi Cenniyə, indi bu qadından xoşbəxt kimsə yoxdu dünyada. Canı qədər sevdiyi kişinin qollarında, onun sevgisini, nəvazişini, hətta şirin kobudluğunu: bədəninin bədənini əzməsini, toxunuşunu, nəfəsini duymaq qədər heç bir ayrı özəl duyğu ola bilməzdi Cenni üçün... Fasiləsiz yarım saatdan çox birlikdə cənnət həzzi yaşayan cütlük növbəti yarım saatı yanaşı uzanaraq söhbətləşməklə keçirdi... Bir saat sonra isə hər ikisi yatmışdı... Bir qədər sonra Mayklın telefonuna bir dostundan mesaj gəldi: "QARDAŞ, DEDİYİM QIZI GƏTİRƏCƏM SİZƏ, SƏN VAXTI TƏYİN ET VƏ DİNCƏL"... Beləcə üç illik saf sevginin divarı xəyanət çatlarıyla parçalanmağa başladı. Və bu an sanki zaman durdu, irəli deyil, geri getməyə başladı: hər şeyin necə başladığı və səbəblərin yarandığı o ilk ana...

<u>6 mart 2017</u>

## Kimsəsizlər adası və heç kimlik vals...

### *(hekayə)*

Bir kimsəsiz ada vardı. Bu adanın sakinləri ya yerli-dibli olmamışdılar, ya da sonradan hansısa faciəvi möcüzə nəticəsində yox olmuşdular...

Adanın bir köşəsində bir cüt ağac arasında bir cüt skamya vardı. O skamyalar elə görünüşündən qəribə idi. Sanki, sanki baxdıqca adama nə isə demək istəyirdi...

Qəlbi dolu idi bu kimsəsiz adanın. Həm də elə ki, bu dəqiqə bir həzin musiqi səslənsə, hər hansı gözəl melodiyalı bir vals çalınsa, qalxıb insan kimi rəqs edəcəkdi. Özü də elə-belə deyil, capcanlı, içdən, böyük sevgi və ehtiras hissiylə...

Hərdən uzaqlığından iri səyahət gəmiləri keçirdi və sərnişinlərdən onunla maraqlanan da olurdu. Amma nədəndir, bilinməz, kimsə hələ bu vaxta kimi cürət edib ona yaxın gəlməmişdi. Sanki bu kimsəsiz adanın ruhunu, dərin iztirablarını və başına gələn dəhşətli faciəni duyurdular. Elə bil ona baxan hər insanı özü bilərəkdən itirdi bu tənha və kədərli ada...

Ancaq bir dəfə necə oldusa, bir inadkar yazar cəsarət edib ona yan aldı. Yeni romanı üzərində düşünməyə özünə vaxt ayırmışdı və ona məhz belə bir tənha yer lazım idi. Ayaqları torpağa basan ilk andan ilhamlanan yazar ürəyində bu ada ilə bağlı bir neçə cümlə işlətdi:

- Duyuram. Bəli. Dərinliyindəki o ehtirası da, eşqi də, həsrəti də və nəhayət, faciəni də...

Yazar yanılmamışdı. Əsla. Adanın dərinliyində gizli bir həqiqət vardı. O həqiqət ki, bəlkə də heç vaxt açılmamalıydı. Çünki açılsaydı, özüylə birlikdə yenidən bir neçə insanı kədərləndirəcək, dəhşətə gətirəcək və həyat haqqındakı bütün nikbin düşüncələrini alt-üst edəcəkdi. Məhz buna görə, ada sirrinin açılmasını istəmirdi. Amma yazar yaman inadçı idi. Və bu inadçılığı keçən hər saniyə onu adaya daha çox bağlayırdı.

Bir həftə adada qalan yazar yavaş-yavaş buraya uyğunlaşmağa, ilk gəldiyi andan içini bürüyən qəribə vahimə hissindən azad olmağa başlamışdı ki, haqqında az əvvəl söz etdiyimiz o məşhur cüt skamyaya sarı gəldi. Və beləcə hər şey – adanın bütün sirri də çözüldü...

Onlar bir kiçik qəsəbədə məskunlaşmış şirin cütlük idilər. Arzuları, xəyalları da olduqca sadə idi. Sadəcə və sadəcə birlikdə xoşbəxt olmaq istəyirdilər. Ona görə, hər ikisi evlənən kimi öz ailələrindən, yaşadıqları mühitdən uzaqlaşmaq, toplumun bütün itici fikirlərindən və "qayğısından" qurtulmağa çalışdılar. Elə bu arzu, bu niyyət də onları adaya gətirib çıxardı. – deyə həmin skamyalardan birində yerini rahatlayan yazar yeni romanını belə başladı...

Toylarında klassik bəstəkarlardan birinin valsını oynamışdılar. Bu vals, sadəcə toy adəti deyildi onlar üçün, bu vals, həm də yaşanacaq böyük xoşbəxtliyin və dərin məhəbbətin müjdəçisiydi. Amma di gəl ki, oynarkən bir-birinə saf sevgi gülücükləri bəxş edən ikili zalım sonluqdan xəbərsiz idilər...

İndi burada – bu qoşa ağacın arasında, qoşa skamyaların birində oturan yazar dərin fikrə getmişdi. Çox düşündü. Amma bu adada baş verən faciənin ruhunu duysa da, hələ ki özünü mənimsəyə bilməmişdi, deyəsən, belə getsə uzun müddət bir şey anlamayacaqdı da...

Qızın atası nüfuzlu əyalət rəhbəri idi. Və onun üçün ailəsinin xoşbəxtliyindən daha çox, bu günkü şöhrəti, əhali üzərindəki hakimiyyəti və əlbəttə ki, bütün insanlığı qarmağına keçirmiş, əsrlərdir kölə etmiş külli miqdarda pul... Heç cür razı ola bilmirdi, niyə qızı, "onun" qızı qonşuluqdakı, qohumluqdakı "asil" nümayəndələri deyil, tamam uzaq məmləkətdən gələn, füqara (kasıb) bir kişini seçmişdi. Atalıq duyğusu

heç, indi eqoist əyalət rəhbərini maraqlandıran və düşündükcə qıcıqlandıran yalnız bir şey vardı – baxışlarıyla daim aşağıladığı, danışıq tərziylə əzdiyi, nəhayət, pulu ilə məhv etməyə çalışdığı bu aşağı təbəqənin adamı ondan, hətta bütün çevrəsindəki kişilərdən daha yaraşıqlı və ləyaqətli idi. Yaraşığı da dursun bir yana, o, heç vaxt heç bir zəngin kimi nəyinsə, elə götürək başda pulun, bəli, "cənab pulun" qarşısında əyilməmişdi...

İndi yazdıqca maraqlı fikirlərə qərq olan yazar bu kimsəsiz adanın bütün tərəfini gəzmək, onu bütün incəlikləriylə öyrənmək istəyirdi. Onda duyduğu ehtiras yazarı yaman ovsunlamışdı və o, bu ehtirasın qaynağını, əsas da hekayəsini öyrənmədən əl çəkməyəcəkdi. Əl çəksəydi, nə vaxtsa bezsəydi, o zaman ruhunu, yazarlıq istedadını itirə bilərdi, özü də həmişəlik... Axı bütün incəsənət adamları kimi yazarlar da çox qəribə və inadkar olurlar. Bu inadkarlıq tədricən onları digər adi insanlardan fərqləndirir və özəl edirdi. Bu özəlliksə tarixə düşməyə, ölümündən sonra əbədi yaşamağa bir vasitəydi, həm də vazkeçilməz, əldə olunması haradasa mümkünsüz olan vasitə...

Toydan bir gün qabaq atası onu son dəfə təhdid etmişdi. Bu təhdid, sevgilisinə qovuşmağa tələsən gənc qız üçün nə qədər önəmsiz olsa da, atasından, canından çox sevdiyi anasından birdəfəlik ayrılacağı üçün onu çox qorxutmuşdu. Amma nə etmək olar, həyatın ona biçdiyi rol da bu idi. Çarəsiz qızcığaza sadəcə səhnəyə çıxıb oynamaq qalırdı. Bütün olanları özündə yaşadan, dərin həyat eşqiylə köklənmiş vals isə elə hey həzin-həzin səslənirdi...

Hələ bunlar harasıydı. Hekayənin əsas dönüş nöqtəsi o idi ki, bu məsum cütlüyün saf, ilahi eşqinə qarşı dayanan bir nəfər də vardı. Həm də onları ölümünə ayırmağa and içmiş, qəddar, miskin bir "insan"... O da guya qızı sevirdi. Özü də dəlicəsinə. Amma məsələ burasındaydı ki, qız ona heç vaxt, adi bir salam da verməmişdi, qaldı ki hər hansı gülümsəmə, hər hansı gələcək xəyalı, sevgi ümidi...

Yazar durmadan yerində vurnuxur, romanın əsas süjetini, necə deyərlər, bu kimsəsiz adanın "taleyini" qurmağa çalışırdı. Bir qədər düşündükdən sonra günlərdir mürəkkəbə batmış əllərini, yazmaqdan incinmiş barmaqlarını, qızarmış, yorğun gözlərini istirahət üçün rahat buraxdı... Amma bir şeyi – durmadan adanı düşünən beynini dayandıra bilmədi. Dalbadal üç gün yatan yazarın beyni yuxuda belə düşünürdü. O da deyəsən, inadkar yazartək sirli mətləbləri açıqlığa qovuşdurmadan rahatlamayacaqdı, həm də heç...

Toydan sonra məsum cütlüyü hər an izləyən miskin və eqoist "aşiq" qızın atasını özünə xas yaltaq hərəkətləri, davranışları və özü qədər ucuz hədiyyələriylə ələ ala bilmişdi. Məhz ona görə idi ki, şəxsiyyətcə asillikdən xəbərsiz olan əyalət rəhbəri nəyin bahasına olursa, olsun, hətta qız sevdiyindən uşağa qalsa da belə, qızı ondan ayırmağa və bu özü kimi alçaq, yekəxana "aşiq"-ə verməyə hazır idi...

Toy gecəsi çox möhtəşəm keçmişdi. Tanrının sevdiyi iki bəxtəvər bəndəsi bu gün bir-biriylə sözün bütün mənalarında qovuşmuş, arzularına, uzun zamandan bəri gözlədikləri vüsala çatmışdılar... Di gəl ki, hər an ağın yanında qara da var və bu qara daima ağı ləkələməyə, onu içində bütünlüklə udmağa çalışır... Bu gecə də onlara açıq qalmış pəncərən tamaşa edən xəstə "aşiq", o qaranın elə özüydü ki var...

Niyə belə olur, görəsən?... Niyə, həyatda xoşbəxt ola bilməyən xəstə ruhlu insanlar bədbəxtliklərinin səbəbini özlərində, həyatda acımadıqları məsum insanların gözyaşlarında deyil, xoşbəxt olmağa çalışan və ruhən həqiqətən xoşbəxt olan kimsələrdə axtarırlar?... Niyə?... Axı niyə?... Bəlkə də bu sualın cavabını Tanrı bilir, kimini xoşbəxt, kimini bədbəxt yaradan Uca Varlıq...

Bu adada olduqca gözəl həyat yaşayan ikili duyuqları möhtəşəm eşqdən və birlikdə keçirdikləri saysız-hesabsız əsrarəngiz anlardan başqa heç nə düşünməmiş, elə ona görə də ölüm kimi, qorxulu bir kölgətək onları daim izləyən mənfur şəxsin varlığından xəbərsiz idilər... Bir gün adadan qısa müddətə uzaqlaşmağa və hər çılğın insanın arzuladığı dünya səyahətinə çıxmağa hazırlaşan aşiqləri inadkar yazarın sonunda düşünüb tapdığı dəhşətli faciə gözləyirdi. Özü də səbirlə, heç bir yerə tələsmədən...

**“RUHUMUN RƏNGLƏRİ” – ELŞƏN İSMAYIL**

Bu qoşa ağacın arasında düzəldilmiş qoşa skamya, xoşbəxt cütlüyün şirin xəyallarının və tezliklə doğulacaq şirin balalarının nişanəsiydi. Qız belə istəmişdi. Zaman-zaman onların ailəsi böyüyüb-çoxalacaq deyə. Üzü dənizə doğru olan skamyaların birində uzun illər sonra yaşlansa da, öz təravətini itirməmiş xoşbəxt, şirin ata-ana, digərindəsə sevimli balalarının yeni yaranacaq ailəsi oturacaqdı. Bütün boş vaxtlarını, ən xoş günlərini burada keçirəcəkdilər. Ən əsası, birlikdə gün batımını, burada oturaraq, bir-birinə yaslanaraq izləyəcəkdilər. Beləcə, bir xoşbəxt ailə də dünyaya öz töhfəsini, əsil firavanlıq müjdəsini verəcəkdi. Həqiqi mutluluğu bəxş edəcəkdi...

Zalım fələk, qəddar tale, zülmkar alın yazısı hər zaman sonda – həyat tamaşası, “ömür pyesi” bitmədən salonun ta qabaq cərgəsində öz yerini hazırlayır. Bu dəfə də bilet almağı unutmamışdı. Həvəslə, böyük ehtirasla finalı izləyəcəkdi...

Səyahət gəmisi yaxınlaşanda sevinclə ona minməyə tələsən cütlüyü, arzuolunmaz biri qarşıladı, həm də miskin, murdar simasıyla birlikdə...

Silah gücüylə, özüylə gətirtdiyi, qəpik-quruşla tutduğu şəxsiyyətsiz adamlarının zorbasıyla da razılaşmayan qadın, həyatın ağır şilləsini yeyərək bir anda yetkinləşsə də, ən yaxın məsafədən gicgahından aldığı güllə yarasıyla yerindəcə keçinən ərinin ölümündən sonra da təslim olmadı. Son nəfəsinədək mübarizə apardı. Nəhayət, bu əzazil çarpışmada gözlərini itirən qəddar “aşiq”, adamlarının köməyilə öncə qızı elə sahildəcə, onlara doğru uzaqdan baxan qoşa skamyanın və qoşa ağacın gözü qarşısındaca zorladı. Bununla ona, azad ruhuna sahiblənmək istədi, amma qızın nifrət dolu və təhqiredici baxışlarının qarşısında dözə bilməyib, öz xəstə eqosuna yenildi, sonda qızı – ilahi gözəlliyə sahib olan mələk simalı insanı boğaraq öldürdü... Geri dönüb qızın atasına, qarşısında hər mənada alçaldığı əyalət rəhbərinə cavab verə bilməyəcəyi üçün gəmiylə birlikdə bilinməzliyə doğru gözdən itdi. Əbədi olaraq insanlardan uzaqlaşdı...

Yazar bitkin düşmüşdü. Ağlamaqdan gözləri şişmiş, əlləri qabarlamış, beyni durmuşdu...

Zorlanan məzlum gözəlin bətnindəki, hər şeydən, bütün çirkinliklərdən, fani qayğılardan uzaq olan çağa da o andaca anasıyla birlikdə haqqa qovuşdu...

Əvvəldən axıradək durmadan səslənən sirli vals da sonda Karl Orf-un “O fortuna...” əsəriylə əvəz olundu və yer üzü göylə birlikdə dərin qaranlığa qərq oldu...

Beləcə “Kimsəsizlər adası və heç kimlik vals” romanını bitirdi, günlərdir bu adada ruhən qeyb olmuş və bir neçə günün içində xeyli yaşlanmış inadkar yazar...

***<u>14 yanvar 2017</u>***

# LEYLA

## *(hekayə)*

Çar Rusiyası və Qacar Türk Xanədanlığı arasında Azərbaycan torpaqları uğrunda başlayan müharibənin qızğın dövrü idi. Artıq vətənimizin demək olar ki, bütün güney hissəsi gavur ruslardan təmizlənsə də quzey uğrunda savaşlar səngimirdi. Qəhrəman Abbas Mirzənin rəşadətli, özünü müdafiə qüvvələri torpaqlarımızın hər qarışı uğrunda canları bahasına mübarizə aparır, onlarla, yüzlərlə igidimiz rusların xain toplarına, muşketlərinə qurban gedirdi. Belə bir zamanda Osmanlı imperiyası da Avropa ilə səngiməyən böhran yaşayırdı. Bir dövlət guya onunla dost ikən, digəri onu arxadan vurmağa çalışırdı. Qərbdə də, Şərqdə də Türklərə qarşı böyük oyun davam edirdi...

Sadə bir sənətkar ailəsindən olan Əhməd də qardaşları, atası kimi Abbas Mirzənin ordusunda xidmət edirdi. Yaşı iyirmidən azca artıq olan bu gənc dəliqanlınınsa vətəndən başqa bir dərdi də var idi. Haradasa, iki il bundan qabaq Osmanlı sərhədində bəy ailəsindən olan Leyla adlı gənc xanım, gözəlliyilə bütün əyaləti, hətta ölkənin çox hissəsini heyran edən xanım onun ağlını başından almışdı.

Əhməd ilə Leyla ilk dəfə Leylanın ailəsi Qacar Xanədanlığından bir bəyə qonaq gələrkən, məşhur Xudafərin körpüsü yaxınlığında tanış olmuşdular. Leyla o zaman onu gətirən faytonun pəncərəsindən baxıb möhtəşəm Azərbaycan məmləkətinin gözəlliyindən həzz alırdı. Əhməd də təsadüfən orada dostlarıyla kiçik bir ev tikintisinə başlamışdı. Bu evi tikməyə kömək etməyinisə ondan xalası oğlu Mənsur xahiş etmişdi...

Elə bir Tanrının qutsal mələkləri o an Leylanın çiyninə qonmuşdular. Çünki Əhməd ilk dəfə onu görəndə ona elə gəldi ki, Leyla günəş kimi bərq vurur, işıq saçırdı. Elə bir neçə saniyənin içində bir-birini təsadüfən, yerli xalqın deyimi ilə isə "taleyin yazısı əsasında" görən gənclər aşiq oldular. Həm də dəlicəsinə...

Leylanı görən, ona bütün varlığıyla vurulan Əhməd qədim bir türkünü qeyri-ixtiyari şəkildə zümzümə etməyə başladı:

Kərpic, kərpic üstünə qurdum binanı,
Binanı qurar ikən gördüm ki, Leylanı,
Leyla başıma açdı hər cür bəlanı...

Ah, Leyla, Leyla, Leyla, etmə bu nazı,
Gəl barışaq, baban qıysın nikahı...

Beləcə, hər iki aşiq uzun müddət onları tovlayan ilahi eşq ilə yanıb-alışdılar...

Düzdür, o zamanlar artıq Osmanlıyla normal münasibətlər bərpa edilmişdi, ancaq hər iki tərəfdən xalqın müəyyən kütləsi hələdə 3 əsrdir davam edən qardaş düşmənliyini sürdürürdü. Eləcə də Əhmədin ailəsi...

Əhməd atasına vəziyyətini açıqlayanda aldığı cavab çox sərt və üzücü olmuşdu:

- Biz sünnidən qız almarıq...

Bəli, elə bu cümlə bəs idi ki, Əhmədin dünya-aləm başına dağılsın. Qalan bütün xırdalıqların, xüsusən də Leylanın bəy, Əhmədin rəiyyət əhlindən olmasının bir mənası yox idi, bu təriqət məsələsinin yanında...

**“RUHUMUN RƏNGLƏRİ” – ELŞƏN İSMAYIL**

Ta Osmanlı-Səfəvi müharibələri başlayan zamanlardan Avropanın casuslarının, onların təsiriylə bəzi ərəb “etno-məhzəbçilər”-inin və özəlliklə farsların xüsusi təbliğatı nəticəsində canı bir, qanı bir, dili bir, dini bir olan Anadolu və Azərbaycan Türkləri sırf məzhəb, təriqət və soy məsələləri üzündən bir birinə düşmən edilmişdilər. Bəli, bu məhz elə idi, onlar xüsusilə böyük “beyin imperatorluqları”-nın sifarişi əsasında məcburi şəkildə bir-birilərinə qarşı çıxmışdılar...

Əhməd heç nəyə baxmayaraq bir müddət sonra ailəsini razı sala bilmişdi. Və Leylanı istəmək üçün bir neçə dostu ilə, öncədən ayırdığı, atasının borc-xərclə aldığı hədiyyələrlə Anadoluya – əzəli Türk yurduna - Osmanlı Xanədanlığına səfər etdi. Ancaq o zaman da Leylanın ailəsi ona acı xəbəri verdi, Leyla atasının və bir neçə kişi qohumunun qərarıyla o zamanın Misir əmirinin gəlini olmaq üçün göndərilmişdi. Əhmədin yaralı ürəyi bu xəbərdən sonra param-parça oldu və o uşaq kimi ağlayaraq diz çöküb qədim türkünün bu bəndini zümzümə etdi:

Kərpic, kərpic üstünə düzdüm bir sıra,
Leyladan xəbər aldım, getmiş Misirə,
Quzu olub mələrəm arxasınca...

Ah, Leyla, Leyla, Leyla, etmə bu nazı,
Gəl barışaq, baban qıysın nikahı...

O zamandan xeyli vaxt keçmişdi. Amma Əhməd hələ də Leylanı unuda bilmir, gecələr yuxusunda sayıqlayır, tez-tez dostlarıyla dərdləşmək üçün şərab məclisləri təşkil edirdi. Onu da qeyd edək ki, onun təriqətində şərab haram deyildi. Və dini ayinlər bir sıra qədim Türk törələrinə əsasən keçirilirdi...

Artıq savaş get-gedə qızışırdı və Əhmədin bütün ailəsi tabe olduqları feodalın – bəyin əmriylə bu savaşa qatılmışdı. Baxmayaraq ki, atasının yaşı əlbəyaxa döyüşlər üçün çox idi, amma o vaxtın el qınağına və feodalların ağır qaydalarına tuş gəlməmək üçün qoca səsini çıxarmır, bunu bir növ “tale” hesab edirdi.

Əhməd bir gün döyüşlərin birində ağır yaralandı. Tezliklə sağalıb müharibə meydanına dönməsi üçün onu bir loğmanın yanına göndərdilər. Sən taleyə bax ki, həmin loğman Misirdən yeni gəlmişdi və Əhməd bunu öyrənir-öyrənməz onu sorğu-suala tutdu. Və öyrəndi ki, hazırda Misir əmirinin gəlini, onun keçmiş yavuqlusu da ağır xəstədir. Dərd Əhmədi götürdü. Öncə tez sağalıb savaş meydanına dönmək, atasına, qardaşlarına kömək etməyi qərarlaşdırsa da, bu acı xəbərdən sonra demək olar ki, əlləri-ayaqları boşalmışdı onun. Artıq heç nəyin, həyatda var olan heç bir kəsin və hadisənin Əhməd üçün bir əhəmiyyəti yox idi. Elə ancaq tezliklə ayağa dura bilmək və nəyin bahasına olursa-olsun özünü birtəhər Misir məmləkətinə yetirməyi arzulayırdı. Ancaq burda yaxşı deyiblər, sən saydığını say, gör zalım fələk nəyi sayır.

Bəli, qısa müddətdə Əhməd o zamanın ən biləndərlərindən olan loğmanın xüsusi resepti və dərmanlarıyla sağalıb ayağa qalxdı. Hətta rahat at da minə bilirdi. Ancaq hər kəsin gözlədiyi kimi, o savaş meydanına deyil, neçə vaxtdır ürəyinin ən dərin qatında arzuladığı yerə - Misirə getməyi qərarlaşdırdı. Bir neçə gün sonra isə artıq Misir yolu üzərində uzun yollar qət edirdi...

Misirdə isə onu arzuladığı kimi heç də sakit qarşılamadılar. Sərhədi keçən kimi, Osmanlı yasavulları “qaçaq, casus” damğasıyla onu tutub qaranlıq və soyuq dərin bir zindana atdılar. Burda qaldığı 40 gün içində isə o ancaq Leylanın adının keçdiyi müxtəlif şeir parçalarını, dahi sənətkarların yazdığı qəzəlləri, qəsidələri oxudu və əlbəttə ki, məşhur türkünü...

Qırx gündən sonra hansısa bir önəmli gün xatirinə Misir əmirinin xüsusi fərmanıyla onlarla məhbusla birlikdə azadlığa buraxıldı, o. Ölkəni tezliklə tərk etməsi üçünsə ona ciddi vaxt qoyuldu. Amma inadkar, divanə aşiq Əhməd qanunun ona qoyduğu bu sərt qaydanı pozub bir müddət ölkənin dərinliklərində gizləndi.

Günlərin bir günü isə təsadüfən bir bazardan keçərkən eşitdi ki, bəs sevgilisi, canının bir parçası, yarı Leyla can üstədir. Cismən, ruhən məhv oldu, bu xəbəri eşidəndə Əhməd. Amma yenə də son dəfə sevdiyini görmək üçün saraya xəlvəti yol tapıb bir gecə yarının qonağı oldu.

Leyla onu görcək çox sevindi. Hətta nə yalan deyək, bir az da dirçəldi. Qısa bir vaxt öz yarıyla vaxt keçirib uzun zamandır həsrətində olduğu igidin qollarına atdı özünü. Utanmadan, çəkinmədən bütün cismini, ruhunu, varlığının hər zərrəsini onunla bölüşdü.

Tanrı qatında tamamən günahsız olan məsum aşiqlər o gecə vüsala çatdılar. Amma hər şey elə bununla da bitdi. Axı onlar Tanrı qatında günahsız olsalar da, onun bəzi xəstə ruhlu, qorxmadan, çəkinmədən hakimlik iddiasına düşən, Allahın müqəddəs adınadan öz kirli əməlləri üçün istifadə edən kəslər üçün nəinki sadəcə günahkar, eyni zamanda vətən xaini, casus idilər və gəncləri artıq amansız ölüm gözləyirdi.

Məğrur ikili isə, hər şeyi əvvəlcədən duymuş və qəbul etmiş olduqları üçün düşmən hesab edilən diyarda, mənfurların əlində deyil, özləri istədiyi yerdə, bəli, məhz ilk tanış olduqları yerdə canlarına qıymaq üçün sözləşdilər və həmən yola çıxdılar.

Artıq olan olmuşdu. Məmləkətin hər yerinə yayılmışdı ki, Misir əmirinin gəlinini Əcəm elindən gələn bir ər oğurlamışdı. Bəli, hamı belə düşünürdü. Kimsə məsələnin əsl mahiyyətini fikirləşmir, necə deyərlər, özünü əziyyətə salmaq istəmirdi. Həqiqətən də şayiə nə pis şeymiş və qeybət günahların ən böyüyü imiş...

Budur, onlar artıq bir neçə gün ağır, yorğunçuluqla keçən yolçuluğu bitirmiş, məhz ilk tanış olduqları yerə varmışdılar. Əl-ələ tutan və bir-birinə olduqca böyük məhəbbətlə baxan aşiqlər Xudafərin körpüsü yaxınlığında, savaşın ən qızğın vaxtında, illər öncə rəsmən bitsə də, xalq arasında hələ də davam edən məzhəb savaşı vaxtında uca bir qayaya dırmaşaraq özlərini taleyin, qismətin qədərinə buraxdılar. Cisimlərini torpağa, ruhlarını Uca Tanrıya həvalə etdilər...

O qəmli, amma dərin eşq hekayəsindən uzun illər keçsə də, hamının ağzında bir-bir dolaşan bir türkü yenidən və yenidən gündəmə gəldi və bütün sevənlər , zamanında sevişənlər, ilahi eşq ilə qovurulan hər kəs o türkünü sevə-sevə və böyük sevinclə oxuyurdu. Sanki çox xoş bitmiş bir hekayənin yadigarı idi, həmin türkü... Amma hamı tək bir şey bilirdi, o türküdə yalnız iki sevən gəncin deyil, eyni zamanda bir böyük xalqın illər öncəki fəlakəti əks olunmuşdu, təəssüf ki, bu belə idi...

Düşmənlərin hiylələrinə, təbliğatına, şəxsi arzuların hərisliyinə qapılan Türklərin yanıqlı hekayəsi... Hətta Abbas Mirzənin torpaqlarımız uğrunda qəhrəmanlıqla can verməsinə baxmayaraq bəzi xain bəylərimizin, xanlarımızın ta əvvəldən ruslara necə satılmasının hekayəsi idi bu bəlkə də... Yoxsa Gülüstan, Türkmənçay, sadə bir savaşın bitiş müqavilələri deyildi...

***28 noyabr – 3 dekabr 2016-cı il.***

# ÇILPAQ GÜNAH

***(hekayə)***

***“Kor olma! Göz önündəki gerçək günahı gör - tam çılpaqlığıyla ruhunu saran günahı! Qeybət cinayətdir!”***

- Budur, o, indi ancaq mənim haqqımda düşünəcək. Həm də gecə-gündüz, dayanmadan, fasiləsiz – deyə, Aygün düşündü. Taksi şoferinin təsadüfən açdığı radioda çox gözəl, həzin bir eşq musiqisi səslənirdi. Sanki bu dəqiqə hər şey – özəlliklə musiqi Aygünün hislərinə həmdəm, şirin xəyallarına – film kimi göz önündə canlanan eşq dolu macəralarına bir “fon” idi. Bəli. Aygün indi çox duyqusaldı. Həm də heç vaxt olmadığı qədər. Özü də hiss etmədən başını dayadığı avtomobil pəncərəsinə sanki gur-gur yağan bir yağış təsiri bağışlayırdı gözlərindən axan yaşlar...

- Axı niyə getdi ki?! Məgər heç bir çıxış yolu yoxmuydu?! Yox. Əlbəttə vardı. “Vətən borcu” deyə, insan öz sevdiyini atıb gedərmi? Məncə, yox!... – bax beləcə dəli-dəli hislərin təsiriylə düşünürdü Aygün. Bəli. Sevdiyi, canından çox istədiyi oğlan – gələcək həyat yoldaşı Orxan fövqəladə hərbi çağırışla birlikdə cəbhəyə yollanmışdı. Aygününsə Orxanın hislərini, milli təfəkkürünü anlamağa hövsələsi çatmırdı. Bəlkə də anlamaq istəmirdi. Ola bilər məhz belə idi. Qəlbinin dərin qatlarına nüfuz etmiş bu böyük sevginin divanəsi olan Aygün artıq sağlam düşünə bilmirdi...

Son günlər televiziyada düşmənin aramsız sərhəd pozuntularından bəhs edirdilər. Ölkə başçısı və müdafiə nazirinin çıxışlarında isə ancaq eyni sözlər eşidilirdi: “tezliklə düşmən layiqli cəzasını alacaqdır!”.

- Ehh... Nə düşmən, nə layiqli cəza... – heç nə maraqlandırmır məni. Məni yarsız qoyan hər kəs, hər şey görüm elə lənətə gəlsin! – deyə, fikir dumanında boğulan Aygün qəfildən ona toxunan bir yad əlin təsirindən dik atıldı. Həmin istiqamətə döndüyü zaman əlin sahibinin taksi şoferi olduğu anladı. Yazıq kişinin çöhrəsində çarəsizlik və utancaqlıq ifadəsi vardı. Haçandan-haçana qız anladı ki, fikirdən-xəyaldan oyana bilməyən Aygünə şofer dəfələrlə səslənmiş, ancaq faydalı ola bilmədiyindən çarəsiz qalıb arxaya dönüb onu əliylə ayıltmaq istəmişdi.

Bəli. Maşın artıq deyilən ünvana gəlib çatmışdı. Aygün çox yubanmadan şoferin haqqını verib endi. Əvvəllər ona şirin bir xəyal dünyasının beşiyi kimi görünən bu “pənbə pancarlı” evi indi ona daha çox sıxıcı və qorxunc görünürdü. Bəlkə də Orxandan sonra yalnız qaldığı üçün belə hiss edirdimi, bilinməz, amma Aygünü indi daha çox can yoldaşının, sevgili ərinin nə zaman qayıdacağı düşündürürdü. Sıxıla-sıxıla qapıya yaxınlaşıb cibindən açarı çıxarıb açdı. Evə daxil olduğu zamansa daha çox sıxıldı və biranlıq hətta başının gicəlləndiyini də hiss etdi. Evliyinin üç aylığı olmasına baxmayaraq indi o daha çox illərlə bəraət almasını gözləyən bədbin bir məhbus kimi hiss edirdi özünü...

Düz üç ay əvvəl hər şey necə də gözəl idi. Aygünlə Orxanın toy mərasimində hər kəs vardı. Qohum-əqrəbanın, dost-tanışın sevincinin həddi-hüdudu olmasa da, onlar Aygünlə Orxan qədər sevinmiş olamazdılar yəqin ki...

Son bir ildə nə qədər yol keçmişdi bu iki divanə aşiq: Orxanın ali təhsilli, olduqca zəngin bir ailədən olması, tam əksinə Aygünün kasıb və təhsilsiz bir ailədən olması ailə başçılarının bu evliliyə razı olmasına mane olurdu. Çox get-gəl, mühasibə, isrardan sonra nəhayət ki, gənc aşiqlər valideynlərini hər şeyə rəğmən – “camaat nə deyər!” düşüncəsini yenərək razı sala bildilər...

*Bəli. Bəzən biz topluma o qədər bağlı oluruq ki, (həm də mənasızca) özümüz hiss etmədən bir müddətdən sonra “camaatın” köləsi halına gəlirik. Bütün şəxsi istək və arzularımızın üzərindən “xətt çəkirik”. Həyat necə də zalım olur bəzən...*

Toy təzəcə olmuşdu ki, Orxanın işi və arzularına görə cütlük ölkə xaricinə - qonşu və qardaş məmləkət Türkiyəyə getməli oldu. Ancaq o zaman Aygün hələ Azərbaycan Türkü olan ərinin Türkiyə vətəndaşı olduğunu bilmirdi. Bilmir nədəndir, amma şəxsiyyət vəsiqəsinə bir dəfə də olsun baxmamışdı ki. Yəqin Orxanın eşqi romantik roman və filmlərdə deyildiyi kimi “kor etmişdi onu”. Bəli sırf bu məsələ cəmi üç aydan sonra onların cənnət həzzi timsalı gözəl həyatını bitirdi...

- Ancaq o, mənə gizli hərbi kəşfiyyatçı olduğunu deməmişdi ki. Mən onun sadəcə Müdafiə Nazirliyində katib olduğunu bilirdim. – deyə, öz-özünə deyinərək kefsiz halda mətbəxdə qəhvə hazırlayırdı Aygün. Həm də məşhur “Türk qəhvəsi”.

Bəli. Deyəsən bunu buralara təzə gəldikləri zaman qonşu Simgə “abladan” öyrənmişdi. Ancaq indi onun da bir mənası yoxdu ki. Son üç ayda fikirdən bir neçə kilo arıqlamış, hər zamanki ay çöhrəsindən əsər-əlamət qalmamışdı. Ancaq yaxşı ki, qonşu Simgə “abla” vardı da, Aygünü darıxmağa, haldan düşməyə qoymurdu. Hətta “niyə evdə oturursan, ev adamı çökdürür!” deyə, onu necə deyərlər “qaza gətirmiş” və yaxın məhəllələrin birində gözəllik salonunda işləməyə razı salmışdı.

Ancaq bütün bu olanlar, yeniliklər Aygünə yaxşı təsir etmirdi. Birincisi ona görə ki, nə edirsə etsin üç ayda bircə dəfə də olsun nə məktub yazan, nə telefon zəngi edən Orxanı unuda bilmirdi. Əslində Orxan tərəfdən buna imkan olmadığı üçün, Aygün tərəfdənsə “neynir məni, yəqin yad eldə birini tapıb” kimi mənasız emosional düşüncələr idi hər şeyi edən. İkincisi də ki, məlum “camaat”...

*Görüm lənətə gəlsin onlar, “camaat” adlanan idbar toplum nə qədər evlər yıxmış, nə qədər canlar almış bu vaxta qədər, həm də ən sadə və olduqca təhlükəli üsulla – dedi-qodu ilə...*

Bəli. Hər şey belə başladı: Aygünün bir tanışı bir həftə sonra ona Türkiyədə işlərinin olduğu və mümkünsə onunla bir neçə günlük qala biləcəyini xahiş etdi. Ondan sonra yazıq qızcığaz “camaatın” dilinə bir düşdü, həm də nə düşdü. İş o yerə gəlib çatdı ki, elə başda güvəndiyi, dərdini, sirrini bölüşdüyü Simgə “abla” da qınamağa başladı bu yazıq qızı...

İki həftə sonra... Gün hər zamankindən daha solğun görünürdü. Yazın sonları olmasına baxmayaraq hava nisbətən tutqun idi. Orxan kimsədən xəbərsiz xaricdən dönmüşdü və Aygünə gözəl bir sürpriz etmək məqsədilə evlərinə doğru yol aldı. Ancaq ayağını məhəlləyə qoyar-qoymaz peşman oldu. Aygün üçün aldığı hədiyyəsini də unudub əsəblə qapılarına gəldi...

*“Camaat” deyə idbar cəmiyyət fərdi insan xoşbəxtliyinin düşmənidir...*

Evə qədər hansı obyektin önündən keçirdisə Orxanın sevinci kədərə, Aygünü görmək istəyi əzablı bir sona çevrilirdi. Və nəhayət bir çoxları kimi o da “camaatın” qurbanı oldu...

Rayon polis şöbəsinə təcili bir xəbər gəldi. Cinayət işinin hərbi kəşfiyyatla bağlı olduğu bilindikdən sonra (Orxanın kəşfiyyatçı olması səbəbiylə) Təhlükəsizlik Orqanı işi öz üzərinə götürdü və hələ yeni-yeni işə öyrəşən, aldığı tapşırıqları həvəslə yerinə yetirən gənc məmur Mete Aydın hövlanak hadisə yerinə yollandı...

**“RUHUMUN RƏNGLƏRİ” – ELŞƏN İSMAYIL**

Mənzərə olduqca ürəkağrıdıcı, əzabverici idi. Gənc Aygün vanna otağının qapısında, Orxan dəhlizlə yataq otağının arasında, Aygünün gənc qonağı isə düz pəncərənin ağzında vurulmuşdu...

İş bir həftə sonra dərin araşdırmadan sonra çözüldü. Və məmur Mete Aydın öyrəndiyi acı həqiqətlər qarşısında heyrətə gəlmiş və “camaata” olan nifrəti birə min artmışdı. Amma olan olmuşdu. Zalım “qeybət” daha bir gənc ailəni məhv etmişdi. Həm də əsasız, sadəcə...

Məsələ orasındaydı ki, nədi-nədi Aygün bu məhlədə yeni olduğundan və gələn qonağı haqda kimsəyə danışmadığından (məcbur idi) “camaat” araşdırmadan, insafsızsa öz “işinə” başlamış, və qəddar “qatil” qeybət “az, görürsən bu yeni gəlini, əri bir həftə deyil getdiyi, amma dinc durmur, həmən özünə aşna düzəldib” və s. kimi iyrənc, idbar, murdar kəlmələrlə yazıq qızcığazı və onun qonağını şübhə altında qoymuşdu. Bir də məsələ vardı ki, bunu elə sərrast və gizlin edirdilər ki, heç Aygünün xəbəri olmurdu ki, bir önləm alsın, kimsəyə nəsə anlatsın və s...

Gənc məmur Mete Aydın bu barədə qəzetlərin birində “cinayət hekayələri” kateqoriyası altına yazdı və hər şeyi olduğu kimi qeyd edərək və öz fikirlərini də qeyd etdi: *“nə murdar insanlardır qeybət edənlər!”...*

Artıq hər şey aydın idi. Gələn qonaq öz ölkəsində əsgərlikdən (müəyyən şəxsi səbəblər üzündən) yubanırdı. Ona görə çarəni Aygünün yanına gəlməkdə görmüşdü (ailəsi ilə məsləhət edəndən sonra). Aygün də biri eşidər gedib konsulluğa filan xəbər verər deyə kimsəyə onun kimliyi və niyə gəldiyi haqqında danışmırdı. O, isə zalım “camaatın” damğaladığı kimi nə qızın yeni məşuqu, nə köhnə sevgilisi, nə də başqa biri deyildi. Sadəcə Aygünün özündən iki yaş balaca qardaşı idi. Bəli. Nəticə necə də ağlasığmaz və tükürpərdicidir elə deyilmi?!...

Qısqanc ər Orxansa hərbi işin stressindən və məhəllədə eşitdiyi iyrənc ittihamlardan sanki bihuş olmuş, necə deyərlər “basaratı bağlanmışdı”. O da araşdırmadan, həqiqətə varmadan qapıya yaxınlaşan kimi silahını çıxarıb içəri daldı. Qapının açıq, qızın duşda olması beynini yeyən şübhə “parazitlərinin” çoxalmasına, arxasını çevirib çölə baxan Aygünün gənc qardaşı Teymurun yad bir kimsə olduğuna inanmasına və hər şeyin bir neçə saniyədə bitməsinə gətirib çıxardı. Artıq Teymurun mağazadan yeni gəldiyi üçün qapını unudub açıq qoyduğu və Aygünün də istirahət günü olduğunu fürsət bilib çimməsinin bir mənası qalmamışdı...

Gənc məmur Mete Aydınınsa olayı necə və kimlər vasitəsilə çözdüyü isə naməlum idi. Deyəsən sonsuzadək də elə qalacaqdı...

Deyilənə görə, Aygün can verərkən peşmançılıqdan özünü də vuran əri Orxanın gözlərinə son dəfə sevgi və böyük istəklə baxıbmış. Ona görədir ki, bəlkə də, mərhumun gözləri Orxan istiqamətində açıq qalmışdı. Ürəyinin istiliyi və yaşam nişanəsi isə çoxdan yox olmuşdu. Həm də əbədilik...

***Yazar qeydi: Qeybət cinayətdir, qeybət edən hər kəs də qatı cinayətkar. Heyif ki, zamanımızda qeybətə iş düşmür. Yoxsa mən hakim olsaydım, hər kəsin arxasınca mənasızca, iyrənc-iyrənc danışıb insanları narahat edən kəslərə ömürlük həbs cəzası verərdim!***

***04.07.2018***

# Dağ adamı...

***(dini, milli-ideoloji bədii hekayə)***

Ya Allah, Ya Məhəmməd, Ya Əli... Hər dəfə bir iş dalınca gedəndə və ya gündəlik hər hansı bir işi görəndə bu sözlərlə başlayırdı İsmayıl kişi... Onu kənddə hamı tanıyırdı. Necə əxlaqlı, namuslu, əsl din adamı olduğunu yaxşı bilirdilər. Amma İsmayıl kişini bu dağ kəndində hər kəsdən fərqləndirən əsas xüsusiyyət saf dindar olması deyildi, yox, o dinə, insaniyyətə və bütün yaradılana verdiyi dəyər ilə, həyata sevgisiylə və daim gülümsəyən nurlu çöhrəsiylə seçilirdi. Çünki onsuzda kiçik dağ kəndində əksəriyyət dinlə məşğul olurdu, bəli, sadəcə “məşğul olurdu”, amma mahiyyət, dərin Allah sevgisi, ruhu qapsayan ilahilik demək olar ki, çox az insanda, əsas da İsmayıl kişidə vardı. Özü şiə məzhəbindən olmasına baxmayaraq, qonşu kəndlərdə az sayda yaşayan sünnilərə son dərəcə hörmətlə, hətta məhəbbətlə yanaşır, yolu düşəndə onların qonağı olub İslamın böyüklüyündən, dinin birliyindən, Allahın ucalığından danışaraq insanları bir-birinə bağlayan əsas vasitələrin önəmi haqqında yoldaşları ilə həmsöhbət olur, bəzən gecədən sübhədək əxlaqi məsələləri müzakirə edirdi.

İsmayıl kişinin böyüklüyü, nurani simasıyla, humanist, xeyirxah adam olmasıyla da bitmirdi. O, eyni zamanda vətəninin, millətinin tarixini, keçmişini dərindən bilən, daim gələcəyi haqqında düşünən, şanlı bayrağını müqəddəs saydığı mövhumlar qədər ülvi məhəbbətlə sevirdi. Və boşuna deyildi ki, o, ilk övladını, ilk göz qarası Hüseyni vətən uğrunda, “Aprel döyüşləri” zamanı şəhid vermişdi...

Bir tək ikinci oğlu Həsəndən çox nigarandı. Çünki ötən il bu vaxtı qıraq kəndlərin dələduzlarına qoşularaq kəndən gizlicə sərhədi keçərək İrana getmişdi. Niyə və nə üçün getdiyi çox az insana bəlli olan Həsənin taleyi düz bir il idi ki, İsmayıl kişi başda olmaqla, hər kəsə naməlum idi... İsmayıl kişi hər namaza başladığı an əllərini göyə qaldırıb Uca Yaradana, Allaha dualar edir, ortancıl oğlu Həsənin taleyinin bəd olmaması üçün yalvarırdı:

- Ey laməkan, varlığının şah damarımız qədər yaxın olduğu, Ucalardan Uca Allahımız, sən özün köməyimiz ol! Hər şey sənin əlində, sənin hakimi-mütləq gücündədir. Sən, hər şeyin ən doğrusunu bilən Ali varlıqsan! Varlığına zərrə qədər şübhəmiz yox! Ancaq bu binəva, yazıq bəndələrinə kömək ol, Ya Rəbb!.. Səndən ricam, ortancılım Həsənimin taleyini bəd etmə, Ya Allah! Bir günah içrə qədəm qoymuşsa, onu öz xislətinlə, ruhunla xilas elə, Ulu Tanrım! Uca Yaradan, daim sənə sığınır, səndən kömək gözləyirik! Bizi yaradan, dünyavi-aləmi var edən sənsən! Yalnız sənin istəyinlə varıq, olacağıq, doğacağıq, ta Məhşər gününə qədər yaşayacağıq... – və s. kimi sözlərlə Yaradandan imdad diləyirdi...

Kiçik oğlu, sonbeşiyi Gündüz isə əsgəri xidmətini başa vurub gələndən sonra atasıyla birlikdə torpaqla, mal-qarayla məşğul olur, bir çox işlərdə yaşlı atasına kömək edirdi. Onun adının niyə belə olduğunu, xüsusilə digər böyük qardaşlarından fərqləndiyini kənddə hamı bilsə də, uzaq kəndlərdən, şəhərlərdən gələn qonaqlar hər zaman sorarmışlar. İsmayıl kişinin cavabı isə əksər hallarda təxminən belə olardı:

- Yoldaşım Gündüzə hamiləykən televizorda qardaş Türkiyəmizin PKK Terror Təşkilatıyla mübarizəsindən danışırdılar. Orada bir baş leytenantın taleyi diqqətimi çəkdi: adam, sırf bölüyü düşməndən xilas olsun deyə, könüllü surətdə terrorçulara təslim olmuş, sonda paltarında gizlətdiyi əl qumbarasıyla özüylə birlikdə bir neçə düşmən silahlısını gəbərtmişdi. Şəhid komandir Gündüz Alpın qəhrəmanlığı, igidliyi, insansevərliyi qüruruma səbəb olmuş, taleyi isə məni bərk kövrəltmişdi. Elə o zamanlar insanın vətən üçün, millət üçün necə fədakar ola biləcəyi haqqında çox düşünmüşdüm. Və ani bir qərarla, dostlarımın başqa dini ad barəsindəki təkidinə baxmayaraq, sonbeşiyimin adını Gündüz qoydum...

## "RUHUMUN RƏNGLƏRİ" – ELŞƏN İSMAYIL

Gündüz elə adına layiq bir övlad idi. Əsgəri xidmətini cəbhə bölgəsində başa vurmuş, gələndən sonra da milli tarix haqqında çox maraqlanmışdı. Kənd kitabxanasında kiçik bir araşdırma apararaq Cümhuriyyətimiz, onu quranlar, milli öndərimiz Məhəmmədəmin Rəsulzadə, dövlət xadimimiz Fətəli Xan Xoyski, Difai Təşkilatı, Cənubi Azərbaycanda xalq hərəkatları, Səttarxan, Şeyx Məhəmməd Xiyabani, Seyid Cəfər Pişəvəri və s. dövlət adamlarımız, milli qəhrəmanlarımız haqqında xeyli bilik əldə etmiş, öyrəndiklərini atasıyla paylaşmış, onun məsləhətiylə rayon mərkəzinə gedərək internet klubların birində Bütöv Azərbaycanımızın xəritəsini çıxartmış, kəndə gələndən sonra İsmayıl kişiylə günlərlə xeyli müzakirələr aparmış, kəndin yeniyetmə gənclərini milli mövzuda bilikləndirmişdi...

Günlərin bir günü kəndə İranda təhsil almış, hətta xüsusi dairələrin təlimatını almış (sonradan bəlli olan) şiə təmayüllü bir axund təyin olunur. Məşhədi Pərviz adlı bu din xadimi kəndə ayaq basandan hər şey 180 dərəcə dəyişməyə başlayır. Qıraq kəndlərdəki sünnilər təqib olunmağa, kəndəki qeyri dini şəxslər sıxışdırılamağa və din pərdəsi altında qısa müddətdə Məşhədi Pərvizin şəxsi hakimiyyəti artmağa qədəm qoyur. Əlbəttə ki, bu durumdan ilk öncə narahat olan və müəyyən məclislərdə çəkinmədən öz fikrini bildirən İsmayıl kişi idi. Bir neçə ay ərzində kəndə dini hakimiyyət uğrunda Məşhədi Pərvizlə İsmayıl kişi arasında mübarizə başlayır. Dini hakimiyyətə qətiyyən meyli olmayan İsmayil kişi çox götür-qoydan sonra qərara alır ki, din çarşabına bürünmüş bu şarlatanı ifşa etsin və onun haqqında dövlət orqanlarının köməyilə bir tədbir həyata keçirsin. Ancaq bu, o qədər də asan olmur. Çünki fikri-zikri dindən şəxsi maraqlarını təmin etmək üçün istifadə edən Məşhədi Pərviz şeytanın özü qədər hiyləgər və bic idi. Tez bir zamanda ətrafına xeyli tərəfdaş toplamış, xalqı İran təmayüllü dini təfriqəyə çəkməkdən usanmırdı. Hətta o qədər həddini aşmışdı ki, bir neçə dəfə oğurluq etdiyi hər kəsə məlum olan bəzi əliəyri adamları belə qonşu rayonlardan kəndə cəlb etmiş, bir neçəsini köməkçisi təyin etmişdi. Belə olan şəraitdə İsmayıl kişi ona inanan az sayda adamla dini və milli mübarizəyə başladı. Adamlarıyla məclislərin birində söhbəti zamanı belə vurğuladı:

- Milli Xalq Hərəkatımızın lideri, Bütövçülük ideyamızın banisi Ə. Elçibəyi və onun ideallarını təhqir edən, xalqı şovinist fars hakimiyyətinin güdazına verən adamdan əsla nə din, nə dövlət xadimi olmaz! Biz dini etiqadca müsəlman olsaq da, millət olaraq Türkük! Bunu çox yaxşı bilir və əsla bu yoldan caymacağıq! Bu vətən, bu millət kor deyil ki, Məşhədi Pərviz kimi din pərdəsi altında gizlənən şarlatanlara inansın, onun etdiyi qeyri-dini, qeyri-insani əməllərini görməsin... Ola bilər, bu gün Məşhədi Pərviz ətrafına çox adam toplayıb. Çox yəqin ki, hələ bu kəndə ayaq basmamışdan qabaq havadarları maddi və digər məsələlərdə onu razı salmışlar. Amma bu o demək deyil ki, bu kənd, bu el Məşhədi Pərvizə, onun yalançı etiqadına inanacaq və onun timsalında zülmə boyun əyəcəkdir! Bilin və agah olun, bu artıq Həzrəti Hüseyn (ə.s.) mübarizəsi qədər saf və vacib bir savaşdır. Mən tezliklə Məşhədi Pərviz haqqında kifayət qədər məlumat toplayıb dövlətimizin şərəfli orqanlarına onun dələduzluğunu sübut edəcəyəm. Ancaq biz hər bir zaman olduğu kimi bu işdə də dövlətimizə kömək etməliyik! Çünki ilk öncə bu, bizim problemimizdir! Və öz məsələmizi özümüz həll etməliyik!... – şərəfli, vicdanlı, əsl din xadimi İsmayıl kişi...

Bir müddətdən sonra dövlət orqanları ciddi araşdırma aparıb Məşhədi Pərviz haqqında bəzi nüansları aşkar etdilər. Ancaq onun həbsi üçün hələ tam hər şey məlum deyildi. Çünki qanun, fikirlər və istəklər əsasında deyil, faktlarla işləyirdi. Sanki şeytanın özündən "diplom almış" Məşhədi Pərviz ələ keçməməsi üçün əlindən gələni edirdi. Hətta bir gün öz adamlarıyla məşvərət məclisi quraraq İsmayıl kişi haqqında tədbirini söylədi:

- Dinimizin düşməni o mənfur İsmayılı aradan götürməsək, işimiz fəna olacaq, qardaşlar. Gərək biz səlis və cəld addımlar ataq. İsmayıl adlanan o zındıq haqqımızda dövlətimizin böyüklərinə yalan ifadələr verib, mənə böhtan atıb. Baxmayaraq ki, onun danışdıqları yalandan başqa bir şey deyil, ancaq eşitdiyimə görə, dövlətimizin sayılıb seçilən adamları arasında haqqımda şübhələnənlər var. Bu, həm mənim, həm sizin, həm də müqəddəs dinimiz üçün yaxşı hal deyil! Ona görə təcili olaraq, o İsmayılı

vurmaq lazımdır. *(gülümsəyərək davam edir)* Özü də xeyli vaxt bundan əvvəl dostlarımızla birlikdə İrana qaçmış oğlu Həsən vasitəsilə... Biz əvvəl onu oğlu ilə təhdid edib yumşaltmalı, sonra bir fənd ilə aldadıb İran ərazisinə keçirməliyik. Sonra orada din qardaşlarımız onu ya dərhal "din düşməni" kimi həbs edib, ya da öldürəcəklər. Beləcə biz bir kafirdən qurtulacağıq. Sonra bu kənddən başlayaraq cəmi Azərbaycana uca dinimizlə birlikdə əbədi hökmran olacağıq... – və s. kimi pafoslu, fitnə dolu fikirlərlə öz adamlarını şərə təhrik etdi Məşhədi Pərviz...

Bir müddət hər şey plana uyğun getsə də, İsmayıl kişini üzən təhdidlər gəlməyə başlasa da, şərəfli dövlət orqanlarımızın ciddi tədbirləri və İsmayıl kişinin, ona sidqi-könüldən inanan azsaylı dindarların dirənişi şeytanın xidmətçi Pərvizə imkan vermədi. Xarici havadarlarının dövlətlərarası qarşıdurmadan çəkinməsi də "Məşhədi" adını saxtakarlığıyla kirləyən "din xadimi"-nin bütün planlarını alt-üst etdi. Son çarəni o, bir gecə İsmayıl kişini yatağındaykən öldürtməkdə gördü... Sonralar İsmayıl kişi və tərəfdarları o məlum gecə haqqında danışacaqdılar:

- Sanki Muaviyyə dirilib öz kafir ordusuyla birlikdə gəlmişdi. Hz. Əli (ə.s.), Hz. Hüseyn (ə.s.) tərəfdarlarının haqlı savaşı, Uca Yaradanın köməyiləsə kafir məğlub edildi...

Az qala kiçik vətəndaş müharibəsi olacaqdı ki, dövlət orqanlarının xüsusi peşəkar qrupu Məşhədi Pərvizin xain adamlarını yerindəcə həbs etdilər. Onun özü isə fürsət tapıb İrana qaça bilmişdi. Ancaq elə bu an sanki uca dağlar dözməyib özü şeytanın xidmətçisindən intiqam aldı: İranın dağlıq vilayətlərindən birində Məşhədi Pərviz yırtıcı heyvanlarla üzləşərək sıldırım qayalığa doğru qaçmağa qədəm qoydu. Və Tanrı ədaləti ildırım olub öncə Pərvizi başından vurdu, sonra onun dağdan yıxılaraq tikə-parça olmasına səbəb oldu...

Aylar-aylar keçdi o pis günlərin ardından... Artıq İsmayıl kişinin yaşadığı bu dağ kəndində hər şey əmin-amanlıqdaydı. Dövlətimizin başbilənləri bir müddət müzakirədən sonra kəndə elə İsmayıl kişini axund qoydular. Din də, bütün digər məsələlər də sabit öz qaydasına salındı. Hətta qonşu kəndlərdən, rayonlardan sünni qardaşlar da gəlib şiələrlə birlikdə məscidlərdə namaz qılırdılar...

İsmayıl kişinin dostu, tələbə yoldaşı Osman bir gün kəndə qonaq gəldi. Onun haqqında, din və millət birliyi yaratması barəsində eşitdiklərindən təəccüblənən və böyük fəxarət hissi duyan sünni Osman, İsmayıl kişiylə birlikdə kənd məscidində yanaşı namaz qıldıqdan sonra çay süfrəsinə oturdu. Çox gözəl söhbətlər etdilər. Və sonda Osman bir ailə sirrini ona açaraq, bircəciyi, qızı Aybikəni onun oğlu Gündüzlə baş-göz etmək (evləndirmək) istədiyini dedi. Bu fikirdən çox məmnun olan İsmayıl kişi sevinərək qonağını qucaqlayıb öpdü. Beləliklə hər şey öz axarıyla, Tanrı rizasıyla getməyə başladı...

Günlərin bir günü idi. Bu sabah əvvəlkilərdən çox fərqliydi. Yay olmasına baxmayaraq, hava tutqun və yağmurluydu. Dağların başını qara buludlar almışdı. İsmayıl kişi də havanın belə olmasına təəccüblənsə də, adəti üzrə sübh-tezdən oyanıb namaza durmuşdu. Namazdan sonra yenə adəti üzrə dağları gəzməyə getdi. Ancaq qarşılaşdığı bir hadisə onun – dağ adamının dərindən köks ötürməsinə səbəb oldu. Bir təpənin başında oğlu Həsənin meyidi ilə qarşılaşdı. Cəsədin başına xeyli adam yığılışmışdı. Deyəsən dağ çayı onu İrandan bu taya gətirib çıxarmışdı. Oğlunun necə həlak olmasından, çaya atılmasından xəbərsiz olan ata körpə uşaq kimi ağlayaraq onu ağuşuna aldı. İnək təzə doğulan balasını yaladığı kimi öpüb qoxulamağa başladı...

Sonralar məlum oldu ki, Həsən bir oğuluq üstündə tutulmasın deyə, Pərvizin adamlarının təhriki ilə İrana qaçıbmış. Oradasa pay bölgüsü üstündə günlərin bir günü elə Pərvizin özü onu öldürübmüş. Cəsədi isə bir müddət İsmayıl kişi haqqında planlar quran zaman ondan istifadə üçün saxlatsa da, axırda "atın getsin bir tərəfə, artıq lazım deyil!" deyəndən sonra və Pərvizin planları baş tutmadığı andan onun İrandakı adamları çaya atmışdılar...

Qismət nə idisə, Həsənin meyidi artıq doğma atasının qucağındaydı. Bir qədər sonra özünə gələn İsmayıl kişi kənd adamlarının yardımıyla oğlunu evlərinə gətirib kəfin-dəfn elədi.

Hadisədən bir neçə gün sonra günorta namazında gördükləri İsmayıl kişiyə infarkt keçirdi. Yorğunluqdan, ya gün vurmasındanmıdır, bəlli deyil, ancaq onun halı get-gedə pisləşirdi. Və keçirdiyi dərin iztirablarla birlikdə o, öncə dağın ətəyinə doğru bir ağacın yanında qaraltı, sonra gözlərini qıyaraq baxdığı zaman kölgəyə bənzər insan və nəhayət ürək ağrısıyla, daha diqqətlə baxdığında iki oğlunu birlikdə gördü: şəhid olan Hüseynlə dələduzluğun nəticəsi olaraq öldürülən Həsənin ruhları... Ancaq onlar nə kinolardakı kimi əl-ələ tutmuşdular, nə də bir-birilərinə gülümsəyirdilər. Hüseyn Həsəni qucağına alıb ağlayaraq durmuşdu. Sanki onu – ötən günlərdə tapılan meyidini çay deyil, doğma qardaşı Hüseyn gətirmişdi...

Dağ adamı çox sarsıldı... Dağlar adamına acıdı... Buludlar dözməyib ağladı... İldırımlar elə bil dünyayla savaşa girmişdi. Sanki bir ordu olub hücuma keçmişdilər... Dağ adamı – İsmayıl kişi ürəyini tutub yıxılanda, "Ya Allah, Ya Məhəmməd, Ya Əli" deyə, səslənəndə, kəlmeyi-şəhadətini deyəndə Tanrı da kövrəlmişdi, ona sadiq bəndəsinin taleyinə baxıb sanki O da köks ötürmüşdü... Və beləcə Dağ adamı dağları tərk etdi...

Bir nəfəcik söyliyəyim,
Dinləməzsən neyliyəyim,
Aşk dəryasın boylayayım,
Ümmana dalmaya gəldim...

Aşk harmanında savruldum,
Həm ələndim, həm yoruldum.
Qazana girdim qovruldum,
Meydana yenməyə gəldim...

Bən hakla oldum aşina,
Qalmadı gönlümdə nəsnə,
Pərvanəyəm atəşinə,
Şəminə yanmaya gəldim...

Bən hakkın kəmtər quluyum,
Kəm damarlardan biriyim.
Ayini-Cəmin bülbülüyüm,
Meydana ötməyə gəldim...

Şah Xətaidir, özümdə,
Heç xilaf yoxdur sözümdə,
Əksiklik kəndi özümdə,
Darına durmaya gəldim...

**Şah İsmayıl Xətai.**

***20.10.2018***
***Bir dağ macərasından ilhamlanaraq...***

# Dağlarda bir Türk

***(milli-ideoloji hekayə)***

Dumanlı, şaxtalı bir qış gecəsiydi. Qarabağda bir erməni nəzarət-keçid məntəqəsində vəziyyət gərgin idi. Çünki bir saat bundan öncə baş vermiş hadisə nəinki məntəqənin şəxsi heyətini, eyni zamanda yaxınlıqda yerləşən və bu məntəqənin tabe olduğu qərargahda, hətta bu dəqiqə nazirliyin bir çox bölməsində əsəblər tarıma çəkilmiş, baş vermiş hadisəni kimsə həzm edə bilmirdi. Çünki Azərbaycan Silahlı Qüvvələrinin təyinatlı Giziri Mübariz İbrahimovun məlum olayı törətməsindən – yəni tək başına 50-yə yaxın erməni əsgərini, silahlı qüvvəsini məhv etməsindən (bəzi qeyri rəsmi qaynaqlara görə - 135 nəfər) bir neçə il keçməmiş ikinci dəfə belə bir olayın baş verməsi, təkcə Ermənistan Silahlı Qüvvələri üçün deyil, eyni zamanda Ermənistan dövlətinin ümumilikdə nüfuzunu dünya miqyasında düşürmüşdü. Özü də səbəbkarın şəhid olmadan – sanki heç bir şey baş verməmiş kimi çıxıb gedə bilməsi də ermənilər üçün böyük biyabırçılıq idi. Çünki hadisədən iki gün öncə ölkənin baş naziri xarici bir televiziyada çıxışında o dərəcədə pafoslu danışmışdı ki, ona inanan olsaydı, indi erməni ordusu Qarabağdan keçib hal-hazırda Azərbaycanın digər torpaqlarına qədəm qoymalı idi. Amma gəl gör ki, reallıq tamam başqaydı. Və bu reallıq bir gecənin içində hətta prezidenti belə isti yatağından məhrum eləmiş və Qarabağa doğru yola salmışdı...

Bir ay öncə... Xüsusi təyinatlı dəstələrin tərkibində hərbi xidmətini başa vurmağa hazırlaşan Elçini bir gecə yuxusundan hansısa bir kabus qəfil oyandırmışdı. Kazarmada kimsə oyanmasın deyə, səsizcə yerindən qalxan əsgər gördüklərini düşünmək və bir qədər rahatlamaq məqsədiylə mətbəxə keçdi. Orada özünə çay dəmləyib yuxusu haqqında düşündü – yuxuda iki fərqli tarixdə baş verən hadisələr eyni zaman kimi birləşmişdi: Xocalı faciəsi və Mübariz İbrahimovun düşmənə qan uddurduğu gün...

Yerinə təkrar uzanan Elçinin qulaqlarında milli qəhrəmanımızın son sözləri vardı: intiqam tam alınmalıdır, Elçin, eşidirsən, tam!

Elçin uşaqlıqdan ata-ana qayğısından uzaq, yaxın qohumlarının himayəsində böyümüşdü. Atası Elxan vaxtilə Qarabağ uğrunda gedən döyüşlərdə şəhid olmuşdu. O vaxtlar gənc gəlin olan anası Gülyaz da onun dərdinə dözə bilməyib fikirdən, dərddən bir qədər sonra ağır xəstəliyə düçar olub canını tapşırdı. Elçin də hərbçi olan dayısının və onun ailəsinin qayğısı ilə böyüdü. Atasının necə igid bir adam olmasını dayısından tez-tez eşidən Elçin illərlə milli ruhda və düşmənə qarşı böyük nifrətlə yetişdi.

18 yaşı tamam olan kimi həqiqi hərbi xidmətə çağırılan Elçin xidməti bitməsinə az qalmış könüllü olaraq nazirliyə müraciət etdi və dayısının da rizasıyla MAXE kimi xidmətini davam etdirməyə başladı...

Dövlətlə bağladığı müqavilənin də bitməsinə bir ay qalmış, Elçin dözmədi. Son zamanlar yuxularına girən Milli Qəhrəmanımızın və televizorda ara-sıra izlədiyi hərbi filmlər onu düşmənə qarşı amansız olmağa sövq edirdi. İçində böyük bir qorxusuzluq hökm sürürdü və o hiss sanki bir insan kimi elə eyni sözləri təkrar edirdi: intiqam, tam alınmalıdır, tam! Durma, irəli get, düşmənə kim olduğunu göstər!

Son bir ayda Elçin xarakterik olaraq dəyişməsə də, insanlara qarşı, həyata qarşı münasibətində xeyli dəyişiklik hiss olunurdu. Daxilən saf, təmizürəkli adam olduğu üçün içindəki sirrini çox gizlədə bilmirdi. Dili danışmasa da, gözləri, üz cizgiləri günbəgün onu ifşa edirdi. Odur ki, son bir ayda səhhətində yaranmış bəzi nazaslıqları bəhanə edərək kazarmadan mümkün qədər az çıxmağa qərar verdi və komandirindən izn aldı. Bu zamana qədərki nümunəvi xidməti onun bu izni almasına kömək etsə də, kimsə hal-hazırda onun gizli planlarından xəbərdar deyildi. Bəlkə də onun edəcəyi və ya edəcəkləri bundan sonra dövlət üçün, ordu üçün hər hansı bir kriz vəziyyətinə səbəb olacaqdı, amma Elçin bu kimi məsələləri düşünəcək durumda deyildi.

Son bir ayda telefonundan internetə girib ermənilərin son zamana qədər törətdiyi vəhşiliklər və ordumuzun stratejik planları haqqında onlarla video izləmişdi. Eyni zamanda milliyətçi və savaş çağırışı olan replərə qulaq asması Elçini ruhi cəhətdən gücləndirir, intiqam hissini daha da artırırdı. Və bir şey haqqında daha çox

düşünməyə başlamışdı: keçmiş Qarabağ döyüşlərində düşmənin hərbi mücadilədən daha çox psixoloji, informasiya savaşına önəm verməsi onun üstünlüyü idi. Çünki başqa heç bir məntiq erməni vəhşiliklərini açıqlaya bilməzdi. Bəli, məhz belə idi. Düşmən güllədən daha dəhşətli bir silahla silahlanmışdı – qorxu yaratmaq, insanlarda illərlə psixoloji sarsıntıya səbəb olacaq qorxu. O çox böyük hiss idi. Elə bir hiss ki, ona yenilən ən mərd insan bir andaca namərdə çevrilə bilərdi. Və Elçin indi o hissə tam qalib gələ bilmişdi ki, hətta düşmənə qarşı o hissdən silah kimi istifadə etmək fikrindəydi. Bəli, 1990-cı illərin əvvəlarində erməni terrorçularının etdiyi kimi...

Soyuq, şaxtalı bir gecədə Qarabağda bir erməni nəzarət-keçid məntəqəsinə doğru yola çıxan Elçin bir gün öncədən məhşur bir rejissorun bir filmini izləmişdi və o filmin ana ideyası belə idi: savaşda hər şey mübahdır, yaşamaq üçün öldürməlisən!

Bir-iki-üç... – Elçinin sakit, səssizcə öldürdüyü ermənilərin sayı get-gedə artırdı. Bunu tam olaraq necə bacarırdı, heç özünə də məlum deyildi, amma bu dəqiqə Elçin normal insan ağlından uzaq, tamamilə hissləriylə hərəkət edən bir canlı idi. Çünki öldürülən ermənilərə güllə ilə deyil, bıçaq və başqa kəsici alətlərlə hücum edilirdi. Gecənin qaranlığında uzaqdan bir qurda bənzər görünüm yaradan Elçin bu dəqiqə düşmənə qarşı vəhşi bir heyvan kimi hücum edirdi – qulaqlar, başlar, gözlər kəsilib ətrafa səpələnirdi. Bütün bunları fasizləsiz və böyük bir amansızlıqla edən Elçinin qulaqlarında dərin bir qurd səsi və Xocalıda əsir götürülüb sonradan zorlanan Türk qızlarının ah-naləsi eşidilirdi. O səslər tədricən qədim bir Şaman ayini kimi Elçinə ruh verməyə başladı və Elçin nə az, nə çox 20 əsgəri vəhşicəsinə öldürdü – doğradı, parçaladı, məhv etdi...

Hadisə yerindən uzaqlaşan Elçinin hirsi azca soyusa da, hələ ürəyi rahat deyildi. Çünki o, hələ də bura gəlməmişdən öncəki düşüncələrində idi: keçmiş Qarabağ döyüşlərində düşmənin hərbi mücadilədən daha çox psixoloji, informasiya savaşına önəm verməsi onun üstünlüyü idi. Çünki başqa heç bir məntiq erməni vəhşiliklərini açıqlaya bilməzdi. Bəli, məhz belə idi. Düşmən güllədən daha dəhşətli bir silahla silahlanmışdı – qorxu yaratmaq, insanlarda illərlə psixoloji sarsıntıya səbəb olacaq qorxu...

Elçin ürəyində bu sözləri təkrar edirdi tez-tez:

- qorxu çox pis şeydir. Ona yenilsən ailəni də satarsan, namusunu da, şərəfini də... Bundan sonra qoy onlar düşünsün! Türkü humanist, xam, saf saymasınlar. Bəli. Cəhənnəm olsun, qoy Avropa mediası yazsın ki, Türk əsgəri vəhşidir. Ancaq erməni bundan sonra bilsin ki, onun qarşısında artıq nizami qüdrətiylə tanınan bir ordu yoxdur! Onun qarşısında qurd ürəkli deyil, qurd xislətli, qurd qiyafəli bir ordu var! Dini nağıllarda təsvir edilən “Dəccal” Türkün özüdür! Düşmənə qalib gələ bilmədikdən sonra neynirəm İsa peyğəmbər kimi olmağı. Yox! Biz artıq heç kimi bağışlamamalıyıq! Biz artıq qisas almalıyıq! Bizə cinsi azlıqların xislətini nümayiş etdirən Avropapərəst düşüncə lazım deyil! Yox! Bizə onlarla mədəni görüşlər və qətnamə imzalamaq heç nə vermir! Bizə intiqam lazımdır! Ermənini yer üzündən silənə qədər savaş! Kəs, doğra, boğ! – nə edirsən et, amma qalib gəl! Qov yağını müqəddəs torpaqlarından! “Kafir” dediklərini məhv elə, sən buna qadirsən! Sən Çingiz Xan qüdrəti, Teymur ədaləti, Tomris qəzəbisən! Əgər düşmən qana doymursa, onu öz qanında boğ! Qüdrətinlə, qeyrətinlə ucal, qalx ərşə! Çünki sən Türksən – qiyamətə qədər dünyanın tək hakimi!

Və bir ay sonra dünya mediası əvvəllərdən fərli olaraq heç nə yazmadı. Çox adam unutdu o naməlum Türkü və hadisələri. Hətta sosial media, qəzetlər də heç nə yazmadılar. Çünki erməni rəhbərliyi baş verən olayı həzm edə bilmirdi. Bu onlar üçün böyük bir utanc və nüfuz itkisi idi. Ona görə yeni hökümət məsələni böyütməməyə qərar verib olanları “vəhşi heyvanların ani hücumuna” bağladı. Ancaq o Türkün tapılması üçün də lazımı əmrlər verildi. Bütün Qarabağ (işğal altında olan torpaqlar) və Ermənistan ərazisi az qala metrə-metrə axtarıldı. Türk isə qaranlıqda qeyb olan kabus kimi yoxa çıxmışdı, bəli, miflərdəki müqəddəslər kimi...

Aylar sonra Tehranda bir kafedə oturub qəhvəsini içərək qəzet oxuyan bir keçmiş İran generalı anidən ağzından gələn qana təəccüb edərək saniyələr içində boğuldu...

Bir qədər sonra Moskvada bir hərbi məktəbin önündə keçmiş bir rus zabitinin yaşlı cəsədini (çılpaq şəkildə) asılmış və sinəsinə bir mismarla vurulmuş kardon parçasıyla tapdılar. Görənlər olayın şokundan ayıla bilmirdi. Yazıda isə bunlar yazılmışdı: “1992-1993 hadisələrinin iştirakçısı və erməni dəstəkçisi – məsum körpə uşaqların süngüyə keçirilməsinə razılıq verən şərəfsiz”...

Gecənin qaranlığında dağlarda bir Türk peyda oldu. Və o Türk kimlər üçünsə İlbis, digərləri üçün Tanrının qəzəbiydi... Gəlirdi, əli məzlum qanına batanları cəzalandırmaq üçün gəlirdi. Onu kimsə dayandıra bilməyəcəkdi. Çünki artıq o tək deyildi. Arxasında illərlə gizli fəliyyət göstərmiş olan bir Türk təşkilatı vardı. Bəli, o təşkilat fəaliyyətinə görə tarixdəki bir təşkilata çox bənzəyirdi. Xüsusən düşmənlər onu yaxşı xatırlayırdı. Və indi o Türk planlı şəkildə 1988-dən 1994-ə qədər Türklərə qarşı törədilmiş erməni vəhşiliklərinin səbəbkarlarını bircə-bircə tapıb cəzalandıracaqdı, həm də onların xislətinə layiqli tərzdə...

**Ardı var...**

***13.03.2020***

# GİZLİ BAKI
## “PAYTAXTIN GÖRÜNMƏYƏN ÜZÜ”

***(milli-ideoloji hekayə)***

Rusiya. Moskva. 2020-ci ilin əvvəlləri... “Çar” ləqəbli, atası rus, anası erməni olan İvan Vorsınov adəti üzrə səhər yuxudan oyanan kimi soyuq duş qəbul etdi. Havaların hələ soyuq keçməsinə baxmayaraq bu, onun illər öncədən özünə bir “rejim” kimi qəbul etdiyi davranış idi. Soyuq su sanki İvanın dünəndən qalan yorğunluğunu, bütün stressini alır və bütün beyin hüceyrələrini oyadırdı. Ona görə, keçmiş hərbçi, indiki qeyri-rəsmi kəşfiyyatçı olan İvan Vorsınov soyuq suya çox meylli idi. Bəlkə də atasının rus olması və genetik məsələlər onu məhz rus kimi davranmağa vadar edirdi. Ancaq bir çox hallarda anasının erməniliyi özünü büruzə verirdi: bəli, İvan ermənilər qədər vəhşi və qəddar idi...

Səhər tezdən aldığı soyuq duşdan sonra Avropalılar kimi isti bir qəhvə də onun gündəlik “rejiminin” bir parçası idi. İvan qəhvədən sonra bir bahalı siqar çəkməyi də unutmadı. Ardından dərhal iş kabinetinə keçib televizorunu açdı. Bir neçə dəqiqə xəbərləri izləyib ölkədə və dünyada baş verənləri öyrəndikdən sonra planşetini açıb bir qədər internetə - sosial şəbəkələrə nəzər yetirdi. Birdən bir xəbər onun çox diqqətini çəkdi. Azərbaycan və Türkiyənin yaxın zamanlarda birlikdə hərbi təlimlərdə iştirak etməsi haqqında məlumat İvanın kefini pozdu. Dərhal telefonunu götürüb ən yaxın adamı keçmiş Serbiya hərbçisi, indiki muzdlu qatil Vyaçevlav Miloşeviç ilə əlaqə saxladı və günorta saatlarına bir gizli görüş təyin etdilər.

İvanın evi – daha doğrusu qərargahı Moskvanın ən ucqar səmtində, təbiət qoynunda yerləşirdi. Hər zaman işdən sonra doğma evinə və gələcək planlarını rahatlıqla hazırladığı qərargahına gəlmək onun üçün çox vacib idi. O, işinə çox bağlı adam olduğu üçün hətta geniş yayılmış bir sözə özünü tam uyğun hesab edirdi: bəli, İvan Vorsınov işi ilə yaşayan adam idi. Ona görə də bütün sirləri, bütün gizli məlumatları məhz burada – çay kənarındakı qorunaqlı villasında saxlayırdı. Bu, bəzən risk daşısa da, özlüyündə - “qoy sirlərim mənimlə birlikdə ölsün!” – deyə, düşünürdü.

Günorta şəhərdə kafelərin birində görüşüb “sadəcə iki iş adamının işgüzar görüşü” görüntüsü yaratdıqdan sonra ayrı yollarla buraya – evə gəldilər. Və hər şey ondan sonra başladı...

Bakıda – şəhər kənarında bir avtoyuyucu mərkəzdə maşınını yudurdan gənc kəşfiyyatçı Ərtoğrul Məlikov, maşın hazır olduqdan sonra xidmətçinin zəhmət haqqını verib oradan uzaqlaşdı. Yolda telefonuna gizli bir nömrədən zəng gəldi və gənc kəşfiyyatçı sanki zəng edənin kim olduğunu bilirmiş kimi səsucaldıcı vasitəsiylə telefona cavab verdi.

On dəqiqə sonra Ərtoğrul, Terrorizmlə Mübarizə idarəsinin qarşısındaydı. Kapitan Səlimov və Mayor Alıxanov onunla görüşdükdən sonra birlikdə qəsəbələrdən birindəki gizli qərargah kimi istifadə etdikləri evə gəldilər. Yarım saat sonra çay süfrəsi bitdi və gizli danışıqlar başladı...

İvan iş masasının üzərində iri həcmli bir xəritə açdı. Xəritədə Naxçıvan, Lənkəran, Qusar və s. sərhəd rayonlarla birlikdə Qarabağ qırmızı qələmlə haşiyələmişdi.

- Bütün bunlar niyə lazımdır – deyə, Serbiyalı keçmiş hərbçi Vyaçevlav Miloşeviç yeni “iş” barəsində sorğuya başladı.

Bir neçə saniyə xəritəni diqqətlə nəzərdən keçirən İvan:

- Səbirli ol, hər şeyi biləcəksən – həmkarına fikrini bildikdən sonra Gəncə və Bakını qara qələmlə haşiyələdi.

Serb daha çox maraqlandı və sual dolu baxışlarla İvana baxdı. O isə həmkarına hər şeyi açıqlamağa başladı:

- Vaxtımız həm uzun, həm də qısadır. Türkiyə və Azərbaycan birlikdə hərbi təlimlərə başladıqları andan etibarən sərhəd rayonlarında ciddi “hüquq pozğunluğu” görüntüsü yaradacağıq, bu ərəfədə Azərbaycan hüquq-mühafizə orqanları hərəkətə keçəcək. Biz isə bir neçə ay ərzində hazırlayacağımız böyük planla Gəncə və Bakıda yerləşəcəyik. Sonra Qarabağda ermənilər atəşkəsi hər zamanki kimi pozacaqlar. Dövlət yenə “gərəksiz” bir istiqamətdə əməliyyatlara başlayacaq, biz isə iki böyük şəhəri yer üzündən siləcəyik. - əməliyyatı anlatdıqca xəritədə müəyyən qeydlər edən İvana həmkarı olduqca heyrət və heyranlıq hissiylə baxırdı.

Qısa bir vaxtda böyük bir fəlakət ssenarisi hazırlanırdı. Bunun qarşısını isə ancaq güclü bir sistemi olan orqan, təşkilat ala bilərdi. İvanın hesablamaları olduqca dəqiq idi. Hər şeyi sapa düzülən inci kimi işləmişdi. Və planlaşdığı kimi bir neçə ay ərzində “diplomat, iş adamı, turist” qılıqlı adamlar Azərbaycana getməli idi...

Ərtoğrul, Kapitan Səlimov və Mayor Alıxanovun gizli görüşündə düşmənin son aylardakı kəşfiyyat və terror fəaliyyətləri yer almışdı. “Yuxarıdan” gələn əmrə əsasən bu il çox kritik il sayılırdı və hər şeyə ciddi nəzarət edilməliydi. Sonda Ərtoğrulun yeni bir ciddi tapşırığı qeyd olundu. Tapşırığa əsasən o, ard-arda üç ölkədə - İran, Rusiya və Gürcüstanda olmalı, orda müəyyən adamlarla görüşüb beynəlxalq vəziyyəti ölçməliydi. Sonra ölkəyə qayıdıb yeni tapşırıq üçün gözləyəcəkdi...

Serb İvanla görüşdən sonra Moskva xaricində fəaliyyət göstərən bir neçə erməni əsilli iş adamıyla görüşdü. Moskvadakı görüşlərə isə İvanın özü qatıldı. Baş tutmalı olan əməliyyatın sponsorları da artıq hazır idi. Məsələnin əsl və ideoloji mahiyyətini isə İvan ən sona saxlamışdı və heç kimlə bölüşmürdü. Bu onun çoxdankı xasiyyəti idi. Onun “dəyərinin” yüksək olmasının səbəbi də elə son dərəcə ciddi, soyuqqanlı və sirli olmasında idi...

İran. Güney Azərbaycan. Ərdəbil... Yazın sonu... Ərtoğrul dar küçələrlə irəliləydi. Şəhərin tarixiliyi və doğmalığı onu buraya ilk addım atan andan valeh etmişdi. İndisə “araşdırmaçı alim” kimliyilə ona tapşırılan yerə gedib orada bir adamla görüşüb daha fərqli bir məkana, başqa şəxslərlə görüşməli olduğunu xatırladığına görə, artıq Ərtoğrulun beynində tapşırıqdan başqa bir şeyə yer yox idi. Nəhayət, bir müddətdən sonra “bazar” deyilən bir əraziyə gəlib çatdı. Ağsaqqal, nurani bir kişiylə görüşüb başqa bir məkana doğru yola düşdülər...

İvan evinin altında yerləşən gizli qərargahda topladığı adamlarla birlikdə plan üzrə son müzakirələr aparırdı.

- Məni diqqətlə dinləyin. Yerinə yetirəcəyini bu taprışıq xalqımız və dövlətimiz üçün olduqca vacib və həlledici addım olacaq. Biz Türkləri Qarabağ “xülyasından” ayırmaq üçün əsas həmləni edəcəyik. Gəncə Bakı kimi önəmli şəhərlərdə törədəcəyimiz terror aktları bizə yeni hücumlar üçün şans, Ermənistana isə danışıqlarda üstünlük verəcək. Türklər birdəfəlik anlamalıdır ki, vaxtilə qan tökərək aldığımız torpaqlardan asanlıqla əl çəkmək fikrimiz yoxdur. Ona görə də hər şey qüsursuz şəkildə yerinə yetirilməlidir – deyə, öz adamlarına planları haqqında məlumat verirdi “Çar” ləqəbli erməni balası İvan.

Bir neçə erməni iş adamının sponsor olduğu bu layihədə İvanın şəxsi maraqları da az deyildi. Əgər hər şeyi dəqiq hesabladığı kimi həll edə bilsəydi, təxminən 20 milyon dollar qazanc əldə edəcəkdi. Amma onun heç kəsə demədiyi bir sirli planı da vardı ki, o plana əsasən şəxsən özü Azərbaycana getməli olacaqdı...

- Ən son Səfəvilər zamanında ortaya çıxıb parçalanmış torpaqlarımızı birləşdirmək üçün fəaliyyət göstərdik. Sonralar siyasi, tarixi vəziyyəti dəyərləndirib 20-ci əsrə qədər gün üzünə çıxmadıq. SSRİ adlı zülm imperiyasının yıxılması üçünsə uzun illər çalışıb uğurlu nəticə əldə etdik. Müstəqillik dövründə Azərbaycanın bir çox siyasi məsələlərində, daha çox terrorla mübarizə sistemində fəaliyyətimizi davam etdik – deyə, mavigözlü, ağsaçlı bir kişi Ərtoğrula təşkilat fəaliyyəti haqqında qısa açıqlama verdi.

- Kapitan Səlimov demişdi ki, sizin təşkilatın kökü min illər öncəyə dayanır – Ərtoğrul bildiklərini dəqiqləşdirmək istədi.

- Doğrudur. Qədim Manna dövlətindən də əvvələ... – amiranə tərzdə gülümsəyən yaşlı kişi bildirdi...

Ard-arda bir neçə sərhəd rayonunda qaçaqmalçılıq və s. kimi qanunsuz hallar yaşandı. Azərbaycan dövlət orqanları bütün qeyri-qanuni işlərin qarşısını qısa müddətdə aldılar. Ancaq hesablanmayan məsələ İvanın əsas planı idi. Ona görə də öncədən düşünüldüyü kimi İvan və bir neçə adamı artıq müxtəlif qiyafələrdə paytaxta gələ bilmişdi. Gəncədə də Vyaçevlav Miloşeviçin komandası işə başladı. Bir neçə gün ərzində bütün giriş-çıxışlar, dövlət əhəmiyyətli binaların yeri müəyyən olundu. Növbəti plan isə, o məkanlara xüsusi qaydalarla hazırlanmış və dəhşətli nəticələri ola bilən partlayıcı maddələrin yerləşdirilməsi idi. Bu zaman “Çar”-ın “ordusu” çətin vəziyyətə düşdü. Çünki...

Ərdəbildəki görüşdə ağsaqqal Ərtoğrula “Çar” və onun komandası haqqında məlumat vermişdi. Məsələ burasındaydı ki, İvan Vorsınov pul və mövqe naminə oxşar hadisələri savaş gedən bir çox ölkələrdə, bölgələrdə etmişdi və günlərdin bir günü İraqın Türkman – Azərbaycanlı əhalisinin yaşadığı bölgəsində gizli təşkilatın bir “Dərviş” kod adlı nümayəndəsi onun haqqında məlumat əldə edərək Ərdəbildəki mərkəzə göndərmişdi. Təşkilat da necə deyərlər, ovu ürkütməmək üçün ətrafa səs salmamışdı...

“Çar” sübh tezdən başlayacağı əməliyyat üçün qaldığı otel nömrəsində yuxudan oyananda başı üzərində silahlı bir adam görən kimi dik atıldı. Balıncı altında gizlətdiyi tapançasını götürməyə macal tapmamış Ərtoğrul təpiklə öncə onun üzünə vurdu, sonra sinəsinə çıxıb onu sıxdı.

- Bütün kirli planların buraya qədər idi, “Çar”! – deyə, Ərtoğrulun hökmlü səsi İvanın qulağında cingildədi.

Ehtiyat üçün bir müddət özünü bilməməzliyə vursa da, bir müddətdən sonra hər şeyin qarşı tərəfdən bilindiyini görən İvan günahını etiraf etdi. Onun əsas adamı Vyaçevlav Miloşeviç və komandası da qısa zamanda hüquq-mühafizə orqanları tərəfindən yaxalandı. Son olaraq İvanla Ərtoğrul arasında belə bir dialoq keçdi:

- Sənin kimi peşəkar bir terrorçunun belə asanlıqla ələ keçəcəyini düşünmürdüm doğrusu – kinayə ilə gülümsədi Ərtoğrul.

- Heç nə bitməyib. Hər şey hələ indi başlayır – deyə, eqosundan vaz keçməyən İvan əlavə etdi – biz ermənilər tarixən siyasi məqsədlərimi reallaşdırmaq üçün hər dövlətin, hər xalqın içində yaşamış, ilan kimi gizli, xain xislətimizdən vaz keçməmişik. Bizans, Sasanilər, Xilafət, Rus imperiyası, ən son da SSRİ

bizim üçün əsas sığınacaq yeri idi. Bütün güclü dövlətlərin tərkibində özümüzə zamanla mövqe qazandıqdan sonra güclənmək üçün hər şey etmişik.

- Ən çox da qadınlarınız bu işdə sizə kömək ediblər – Ərtoğrul gülümsəyərək, İvana bir atmaca atdı.

- Düz deyirsən, vaxtilə anam vacib bir tapşırıq üçün bir rus generalı ilə yatmasa idi, indi mən olmazdım – murdar bir gülümsəmə ilə "Çar" etiraf etdi.

- Belə çıxır fahişəlik sizin millət olaraq xislətinizdir.

- Bəli. Biz məqsədlərimiz üçün hər kəsi, hər şeyi sata, istənilən halda gücü əldə etmək üçün hər şey edərik.

İvanın və komandasının həbsi ölkədə rəsmi bir neçə orqandan başqa heç bir yerdə bilinmədi. Amma onun əsas məqsədini, illərdir heç kimə demədiyi planını isə Ərtoğrul artıq bilirdi. Əsas məsə o idi ki, Ərdəbildəki ağsaqqal Bakı və Gəncə şəhərlərinin müəyyən yerlərində bir çox Türk soylu tarixi dövlətlərin, eləcə də Ağqoyunlular və Səfəvilər dövlətindən qalma dövlət atributları və hökmdarlıq simvolu olan möhürlərin saxlandığı gizli məkanların yerini və İvanın xidmət etdiyi erməni kəşfiyyatının, erməni kilsəsinin, erməni iş adamlarının və onların maliyyələşdirdiyi "tarixçilərin" məqsədlərini Ərtoğrula dedi. Yəni, İvanın əsl məqsədi, onları əldə edib İrəvana aparmaq və əvvəllər olduğu kimi yenə saxta "dəlil"-lərlə maskalanmış halda dünya ictimaiyyətinə təqdim edilməsinin təmin etmək idi. Beləliklə, nəinki Qarabağ, bütünlüklə Azərbaycan "qədim erməni" dövlətinin hakimiyyətində olmuş kimi qəbul ediləcəkdi. Bu isə torpaq işğal etməkdən daha dəhşətli bir hal ola bilərdi. Və gələcək nəsillər üçün yeni, daha böyük problem yaranacaqdı.

Ərtoğrul həmin məxfi tarixi məkanları bir-bir gəzib hər şeyi öz gözləriylə gördükdən sonra daha böyük qürurla Xəzərin sahilinə gəlib möhtəşəm paytaxtını bir də seyr etdi. Onun gözəl, nazlı, hətta çılğın şəhər hesab etdiyi Bakının daha gizli üzünü gördüyü üçün çox sevinirdi. Bundan əlavə İçərişəhərdə "köhnə bir evdə" yaşayan təşkilat üzvlərinin varlığı da bu qədim şəhərin mahiyyətini daha da sirli, güclü qılırdı. Gizli Bakı düşmənin iç üzünü, əsl məqsədlərini aşkara çıxarsa da, Bakı sakinlərindən heç kim bu barədə əsla, heç vaxt bilmədi. Necə deyərlər, batində olan aşkar olmamalıdır...

Artıq bir neçə ay sonra cəbhədə döyüşlər başlamışdı. Rəşadətli ordumuz xeyli irəliləmiş, işğal altında olan rayonlarımız bir-bir azad edilirdi. Mənfur "Çar" və onun komandası isə həbsxanada çürüyərək yavaş-yavaş ermənilərin məğlubiyyətilə birlikdə qəhr olurdular...

***Ardı var...***

***29.09.2020***

# ONUN ÜÇÜN...
## *(hekayə)*

Bir adam dəniz sahili ilə gəzərkən dənizə bir şey atmağa çalışan bir yaşlı kişiyə rast gəldi. Yaxınlaşdı və onun sahildəki balıqqulaqlarını aramla, səbrlə dənizə atdığını gördü. Təəccübləndi və kişidən:

- Niyə balıqqulaqlarını dənizə atırsan? – deyə, maraqla soruşdu yolçu.

Sahilboyu çılğın dalğaların gətirdiyi balıqqulaqlarını dənizə atmağa davam edən şəxs:

- Onun üçün... – solğun baxışlarla yolçunu süzüb “işinə” davam etdi.

- Yaxşı, amma burada minlərlə balıqqulaqları var. Hamısını ata bilməzsən axı. – maraqla kişiyə baxan yolçu dedi.

- Ataram! – qoca yolçuya baxmadan cavab verdi.

- Onları da dənizə atsan nə dəyişəcək?

Qoca dəyişməz üz ifadəsiylə yolçunu süzüb yerdən başqa bir balıqqulağını götürərək dənizə atdı. Sonra nə düşündüsə, yolçunun sual dolu və həyəcanlı üzünə baxaraq, sanki dərdini danışırmış kimi yanıqlı səs tonuyla:

- Bəlkə vicdana gələr. Axı mən bütün yer üzünü onun üçün dənizin dibinə göndərməyə hazıram. Bir tək səs, bir tək duyğu istəyirəm! Başqa heç nə! – deyə, yavaş-yavaş qırışlaşmış üzünü isladan gözyaşlarını yolçudan gizlədən qoca için-için fəğan edirdi...

Nüsrət kişi onunla tələbəlik illərində tanış olmuşdu. Ah. Necə şirin olur gəncliyin qoxusu, tamı... Qısa zamanda bir-birinə öyrəşən ikili öncə yaxın dost, sonra sirdaş, nəhayət tələbəliyin sonlarına doğru sevgili olmuşdular. Hər şey elə rahat, elə sadə idi ki. Sanki fələk bütün vicdansızlığını unudub bu möhtəşəm cütlüyün eşqinə tamaşa edirdi, yana-yana yox, məğlubiyyətilə barışaraq, sakitcə, səssiz-səmirsiz...

Məlum olay bir neçə il bundan öncə baş vermişdi. Tunay Nüsrətlə uzun müddət idi ki, bir yerə gəzməyə çıxmırdı. Həm iş, həm uşaqların qayğısı – bir sözlə həyat bir ilmik olub dolanmışdı ayaqlarına, qoymurdu bir yana getsinlər, azacıq nəfəs alsınlar. Ancaq nəhayət o gün, bəli, məhz o ƏCLAF payız gecəsi imkan tapa bilmişdilər.

İndi hər şeyi olduğu kimi xatırlamaq necə də ağır idi: zülm, vəhşət səsi gəlirdi o gecədən. O gecənin acıması yox idi. Nə cavan ailəyə, nə də onların sevgisinə acımadı. Acımadı o ƏCLAF payız gecəsi...

- Mən od qalamaq üçün meşəyə gedirəm, sənsə uşaqlardan muğayət ol! – deyə, Nüsrət həyat yoldaşına səsləndi.

Tunay isə qızları Göyçə və Dənizlə volleybol oynayırdı dəniz sahilində. Nə Nüsrətin qayğı dolu baxışlarından, nə də ona səslənən narahat səsindən xəbəri olmadı Tunayın. Hava isə elə bil bütün miskinliyini, bədxahlığını bu gecəyə saxlamışdı...

Hər şey bir gözqırpımında baş verdi. Top qəfildən şıltaq dalğaların qoynuna tələsdi. Ardından Göyçə, sonra Dəniz topu gətirmək üçün suya tərəf getdilər. Bədbəxt ana Tunay isə onlara “ehtiyatlı olun!” deməyilə qaldı.

Biranlığa hər şey – bütün dövri-aləm dəyişdi. Göylər guruldadı. İldırım çaxdı. Və qızlarını zalım dənizin qoynundan almağa çalışan məzlum ana qəfildən əvvəllər özü də bilmədiyi, ancaq uzun müddətdir onu içdən için yeyən xəstəliyi kəşf etdi. Və bu xəstəlik onun qan dövranını tədricən yavaşıtdığı kimi, ürəyini də sıxmağa başladı. Qısa zaman içində Tunay nəfəs ala bilmədi və əl-qolu boşaldı. Qızlarıyla vidalaşa bilmədən dənizin zalım sularına qərq oldu.

Onu uzun müddət axtardılar. Hətta aylarla, illərlə...

İki qızını anasız böyüdən məzlum ata illərlə ayrıla bilmədi sevdiyindən. Hər gecə, hər gün o o ƏCLAF payız gecəsinin yarını aldığı yerə gəldi. Çığırmaq, hayqırmaq istəsə də, bacarmadı. Sanki qəhrdən boğulurdu Nüsrət kişi...

Qızlarının imdadına yetişə bildi o gecə. Ancaq nə fayda, Tunayı, bircəciyini, yarını, ruhunun sahibini ki itirdi. Həm də həmişəlik...

Ağırdır. Fələyin zalımlığına, kələyinə, əclaflığına dözmək ağırdır. Zülm, qan, qada qoxan nəfəsini duyaraq yaşamaqsa ondan da ağırdır...

- Ta o gündən bəri elə hey onu səsləyirəm. Səsimlə deyil! Bu dərd sanki səsimi də alıb məndən, sevgilimi aldığı kimi – deyə, gözləri yaşla dolan qoca kişi əlindəki çomağa söykənərək uzaqlara baxırdı.

Yolçu isə qəhrdən boğulurdu. Qocanın dedikləri onun içinə yerləşmiş hiyləgər bir xəstəlik kimi sıxırdı onu. Xəyallar, xatirlər və dəniz. Bəli, məhz bu bivəfa dəniz onun da sevdiyini alıb aparmışdı birdəfəlik, necə?! Daha orası maraqlı deyil! Maraqlısı odur ki, baxanda sanki varlığıyla adamı sehrləyən bu dəniz kinayə ilə, murdarlıqla ona baxıb gülümsəyirdi. Həm də heç acımadan. Sanki onu da almaq istəyirdi...

Qoca hər gün ora gəlməyə davam etdi. Ta ki günlərin bir günü dəniz onu da ağuşuna alanadək... Və sanki indi dəniz rahat idi. Şıltaq dalğalarından əsər-əlamət qalmamışdı. Və sanki Tunay gəlmişdi. Nüsrətə əlini uzadıb səslənirdi:

- Sənin üçün gəldim, Nüsrət, sənin üçün!

Nüsrət də gülümsəyirdi və başa düşürdü, qısqanc dəniz hər şeyi etmişdi. Bəli. Sevgisi üçün, məhz onun üçün...

***<u>06.08.2019</u>***

***Hüzünlü bir musiqinin ilhamından...***

ismayilelshan.simplesite.com

elshanismayil

elshanismayil.wordpress.com

Elşən Səfəvi İsmayıl

YouTube QAM COMPANY

YouTube Elshan İsmayil Production



## ELŞƏN İSMAYIL – YAZAR, SSENARİST, AKTYOR, REJİSSOR VƏ MÜƏLLİM

**2003-cü ildən bəri müxtəlif mövzularda (əsasən milli) şeirlər, hekayələr, pyeslər, dram əsərləri yazır. Şeirləri bəzi qəzet və jurnallarda, hekayələri və müasir dünya, milli ideologiya haqqındakı məqalələri, insan psixologiyasından və hislərindən bəhs edən esseləri, eləcə də müxtəlif mövzularda mətbuata verdiyi müsahibələri bir çox tanınmış veb saytlarda dərc olunmuşdur.**

*** *** ***

**Elşən İsmayıl eyni zamanda müstəqil ssenarist, rejissor və aktyor kimi film və serial sahəsində fəaliyyət göstərmişdir. Tv-də yayımlanan bir serialda aktyor, digərində ssenari müəllifi olmuşdur. Özünün çəkdiyi və milli-ideoloji, psixoloji mövzularda 13 filmi var. davamlı olaraq film sahəsindəki fəaliyyətini davam etdirir.**

**Yazarın eyni zamanda müstəqil rejissor kimi fəaliyyətinə başlanan müstəqil teatr kollektivi və gənc istedadlardan ibarət incəsənət komandası var. Qrup tez-tez milli-mənəvi mövzulu, sosial və ibrətamiz səhnəciklər, tamaşalar hazırlayır...**

**Bu zamana qədər QARANLIQDAN GƏLƏN ADAM adlı bir kitabı işıq üzü görmüşdür. Bu kitab onun ikinci kitabıdır.**